RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 156 (8472) ÇƏRŞƏNBƏ AXŞAMI, 11 avqust 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# “Qarabağ” yatağının dayaq bloku Azərbaycan xalqına və dövlətinə xidmət edəcək



**Prezident İlham ƏLİYEV:**
**“Bu gün biz vaxtilə tərk edilmiş “Qarabağ” yatağına qayıdırıq, eyni qaydada biz doğma Qarabağ torpağımıza da qayıdacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 10-da Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda “Qarabağ” yatağının dayaq blokunun dənizə yola salınması mərasimində iştirak edib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev və “BOS Şelf” şirkətinin baş direktoru İxtiyar Axundov Prezident İlham Əliyevə görülən işlər barədə məlumat verdilər.

Bildirildi ki, “Qarabağ” dayaq bloku SOCAR-ın “BOS Şelf” şirkəti tərəfindən Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda tikilib. Qurğu neft-qaz kəşfiyyatı və hasilatı üçün nəzərdə tutulur. Dayaq bloku “Qarabağ” yatağında quraşdırılacaq stasionar dəniz özülünün üst hissəsini və göyərtə meydançasını saxlamaq məqsədilə şəbəkə tipli metal konstruksiya şəklində hazırlanıb. Bu blok dənizdə suyun dərinliyi 182 metr olan sahədə quraşdırılacaq. Dayaq blokunun quraşdırılması “Qarabağ” yatağının dərin qatlarında neft və qaz hasilatının həyata keçirilməsində böyük rol oynayacaq.

Dövlət başçısı dayaq blokunun dənizə yola salınmasını bildirən düyməni basdı.

Qeyd edək ki, “Qarabağ” layihəsi üzrə hazırlanan dayaq bloku SOCAR-ın tarixində həm ölçülərinə, həm də çəkisinə görə hazırlanan ən böyük sualtı konstruksiyadır. “STB-1” daşıma barjına yüklənəcək konstruksiyanın ümumi çəkisi 16 min tondur. Blokun tikintisi iki il ərzində aparılıb. Konstruksiyanın hazırlanması prosesində mühüm amillərdən biri də yerli mütəxəssislərin iştirakıdır. Belə ki, dayaq blokunun tikintisində çalışanların 95 faizi yerli mütəxəssislər olub.

“Qarabağ” yatağı Xəzər dənizinin cənub hövzəsində, Abşeron arxipelaqının şimal hissəsində yerləşir. Yataqda 1997-1998-ci illərdə Xəzər Beynəlxalq Neft Şirkəti konsorsiumu tərəfindən qazma işləri aparılıb. 2020-ci ildə SOCAR-ın və “Equinor” şirkətinin birgə qazma əməliyyatı vasitəsilə bu yataq məhz neft yatağı kimi kəşf edilib. “Qarabağ” yatağı 60 milyon ton neft ehtiyatına malikdir. Yataqda 6 neft, 3 qaz və 3 suvurucu quyunun qazılması nəzərdə tutulur. “Qarabağ” yatağı Azərbaycanın ən zəngin karbohidrogen yataqlarından biridir.

Bu yatağın istismara verilməsi Azərbaycanın neft strategiyasının daha uğurla reallaşdırılmasına və ölkəmizin neft gəlirlərinin artmasına böyük töhfə olacaq.

Dayaq bloku ilə tanışlıqdan sonra Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibə verib.

**- Cənab Prezident, bu gün “Qarabağ” yatağının dayaq bloku dənizə yola salınır. Bu mühüm hadisənin əhəmiyyəti barədə nə deyə bilərsiniz?**

- Bu, çox əlamətdar hadisədir. Bu gün “Qarabağ” yatağının dəniz işlərinə start verilir. Bu, yatağın işlənməsində çox önəmli mərhələdir. Bu nəhəng qurğu Azərbaycan mütəxəssisləri tərəfindən ölkəmizdə inşa edilibdir və bu gün artıq dənizə yola salınır. Əminəm ki, özülün üst hissəsi də vaxtında tikiləcək və beləliklə, biz “Qarabağ” yatağının tammiqyaslı işlənməsinə başlayacağıq.

1990-cı illərdə Heydər Əliyev neft strategiyasının icrası nəticəsində pay bölgüsü haqqında kontrakt imzalanmışdır. 1990-cı illərdə bu yataqda 3 quyu qazılmışdır. Lakin xarici tərəfdaşlar “Qarabağ” yatağının səmərəliliyinə inanmamışdılar, kontrakta xitam verilmiş və “Qarabağ” yatağı tərk edilmişdi. Ancaq bizim mütəxəssislər tam əmin idilər ki, bu yatağın çox böyük potensialı var və həyat bunu təsdiqlədi. Bu il qazılmış dördüncü quyu səmərəli oldu və beləliklə, yataq tam kəşf edilmişdir.

Onu da bildirməliyəm ki, bu, müstəqillik dövründə Azərbaycanda kəşf edilmiş birinci neft yatağıdır. Çünki “Azəri”, “Çıraq”, “Günəşli” yataqları sovet dövründə kəşf edilmişdir. “Şahdəniz” və “Abşeron” yataqları qaz-kondensat yataqlarıdır. Neft yatağı olaraq bu, birinci yataqdır və bu nəhəng qurğu Xəzər dənizində inşa edilmiş ən böyük qurğudur. Ona görə bu layihənin əhəmiyyəti haqqında çox danışmaq olar. Əlbəttə ki, bu, bizim uğurlu siyasətimizin nəticəsidir. Çünki artıq 1994-cü ildən başlayaraq xarici neft şirkətlərinin Azərbaycanda böyük həcmdə sərmayə qoymalarına baxmayaraq, bu günə qədər Azərbaycanın neft-qaz sənayesinə, neft-qaz potensialına xarici investorlar tərəfindən maraq azalmır, əksinə, artır.

*Ardı 2-ci səh.*

## İlham Əliyev Aleksandr Lukaşenkonu təbrik edib



Avqustun 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkoya telefonla zəng edib.

Dövlətimizin başçısı A.Lukaşenkonu prezident seçkilərində inamlı qələbə qazanması münasibətilə təbrik edib, ona Belarus xalqının firavanlığı və ölkənin inkişafı naminə fəaliyyətində yeni-yeni uğurlar arzulayıb.

Belarus Prezidenti göstərilən diqqətə və təbrikə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

Dövlət başçıları ölkələrimiz arasında strateji tərəfdaşlığa əsaslanan dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik ifadə ediblər.

Telefon söhbəti zamanı əməkdaşlığın müxtəlif sahələrinin perspektivləri ilə bağlı məsələlər müzakirə edilib.

***Prezidentin Mətbuat Xidməti***

## Belarus Respublikasının Prezidenti zati-aliləri cənab Aleksandr Lukaşenkoya

Hörmətli Aleksandr Qriqoryeviç!

Belarus Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi təbrik edirəm.

Seçkilərin nəticələri Belarus vətəndaşlarının Sizə yüksək etimadını, ölkənizin inkişafı naminə yürütdüyünüz siyasi xəttə geniş xalq dəstəyini bir daha təsdiq etdi.

İnanıram ki, bu inamlı qələbəniz qardaş Belarusun çiçəklənməsinə və onun beynəlxalq mövqelərinin daha da güclənməsinə xidmət edəcək, xalqlarımız arasında dostluq ənənələrinə əsaslanan Azərbaycan-Belarus strateji tərəfdaşlıq və hərtərəfli əməkdaşlığının davamlı inkişafına töhfə verəcəkdir.

Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik və qardaş Belarus xalqının rifahı naminə fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 avqust 2020-ci il*

## TƏHSİL - gələcəyin inkişaf faktoru

Müdriklərdən biri deyir ki, iki cür yolgöstərən var: biri öz yolunu başqalarına təlqin edir, digəri isə insanlara onların öz düzgün yollarını tapmaqda yardımçı olur.

Böyük liderlər zəmanələrinin mürşidləri kimi insanlara ən düzgün yolu tapmaqda kömək göstərirlər. Dövrünün görkəmli maarifpərvərlərindən olan Nəriman Nərimanov vaxtilə yazırdı: “Əgər tarixə nəzər salsanız, yəqin edərsiniz ki, heç bir xalq qılınc və silahla irəli getməyibdir. Hansı millət ki, gedib qabağa, tərəqqi edibdir, yalnız elmin, təhsilin gücünə xoşbəxt olubdur”.

Xoşbəxt o xalqdır ki, özünə rəhbər seçib taleyini etibar etdiyi Lider ona yolun ən düzgününü nişan verir. Bu, elm və təhsil yoludur. Bu sahəyə qayğı göstərən dövlət rəhbərləri bununla nəinki öz ölkələrinin iqtisadi və mədəni yüksəlişini təmin edir, həm də dünya elminə və təhsilinə böyük töhfələr verir.

Tarix zaman-zaman sübuta yetirib ki, bir xalqın inkişafı üçün bu yoldan daha müqəddəs bir yol yoxdur. Dünyanın bütün qabaqcıl xalqları öz hədəflərinə yalnız elmin, təhsilin, biliklərin gücü ilə çatıblar. Xalqın yetirdiyi maarifçilər, mütəfəkkirlər də bütün həyatlarını insanlara məhz bu həqiqəti çatdırmağa sərf ediblər. Təhsilin, elmin imkanlarının hər kəs üçün əlçatanlığı naminə yaşayıblar.

Təhsil insanın fərdi azadlıqlarının əsas mənbəyidir. Amma o, insana təkcə fərdi azadlıqlar gətirmir. Fərdlərin aid olduqları mühiti də cəhalət girdabından qorumaqla cəmiyyətə maarifçilik ənənələri üzərində bərqərar olan ictimai azadlıqlar qazandırır.

İnsanların maraqları, zövqü, dünyagörüşü, həyat tərzi və s. məsələlərlə bağlı zaman-zaman ictimai müzakirələrə səbəb olan elə bir problem yoxdur ki, onun həllinə doğru bütün istiqamətlər sonda təhsilə aparmasın. Bu da təbiidir.

*Ardı 4-cü səh.*



## Dövlət başçısının səfərləri regionların simasını başdan-başa dəyişib

Müstəqil Azərbaycanın müasir tarixində yeni səhifələr açan islahatlar illər ötdükcə bir-birini əvəz edir. Prezident İlham Əliyevin milli maraqlara söykənən uzaqgörən siyasətinin həyata keçirilməsi nəticəsində respublikamız dünyanın nüfuzlu dövlətlərindən birinə çevrilmişdir.

Ölkə rəhbərinin konkret hədəflərə hesablanan uğurlu addımları nəticəsində paytaxtla yanaşı, respublikamızın bütün bölgələrində həm abadlıq-quruculuq işləri uğurla aparılır, həm də nəhəng infrastruktur layihələri icra olunur.

Qədim tarixə, zəngin mədəniyyətə malik Gəncə Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində son illər tamamilə yenidən qurulmuş və inkişaf etmiş Avropa şəhərlərindən heç də fərqlənmir. Bu yenilənmə dövlət başçısının qədim Nizami yurduna hər səfərindən sonra daha geniş vüsət almış, şəhərdə park və xiyabanların sayı artmış, mədəniyyət obyektlərinin siyahısına yeniləri əlavə edilmişdir.

*Ardı 6-cı səh.*

## Ehtiyatlı olaq ki, pandemiya dalğası sahilə vurmasın

### Daha az insanın olduğu çimərliyə üz tutaraq istirahətinizin təhlükəsizliyini təmin edə bilərsiniz

Son zamanlar ölkəmizdə koronavirusa yoluxanların sayı kəskin azalıb və hətta bu rəqəm yüzdən aşağı həddə enib. COVID-19-a qarşı aylardır sistemli şəkildə həyata keçirilən effektiv tədbirlər müsbət nəticəsini verib. Buna görə də avqustun 5-dən etibarən bir sıra yumşalmalara start verilib. Çimərliklərin fəaliyyətinə icazə verilməsi isə vətəndaşlarımıza isti yay günlərində əsl ərməğan olub.

Amma bütün dünya, o cümlədən ölkəmiz pandemiya şəraitində yaşayır. Atdığı bütün addımları, verdiyi bütün qərarları məhz onun diktə etdiyi şərtlərə uyğunlaşdırır. Hazırda dünyada əksər ölkələrin COVID-19-un ikinci dalğası ilə üzüzə qaldığı bir zamanda vətənimizdə yoluxma sayının aşağı düşməsi, sərt karantin rejimindən yumşalmalara keçidin sürətlənməsi olduqca sevindiricidir. Əhalimiz də bu müsbət tendensiyanı qorumaq üçün maksimum tələb olunan qaydalara riayət etməlidirlər.

Amma çimərliklərin açıldığı bir neçə gün ərzində vətəndaşlarımızın bir çoxunun pandemiyanı unudaraq əhalinin sıx toplaşdığı çimərliklərə üz tutmaları virusun artacağı narahatlığını doğurur.

### Bakı Xəzərə üz tutub…

Ötən bazar günü Mərdəkandakı bir neçə çimərlikdə apardığımız müşahidəyə əsasən deyə bilərik ki, sanki bütün şəhər Xəzər dənizinə axışmış, sahillər aşıb-daşırdı...

*Ardı 5-ci səh.*



## Bir daha içməli su haqqında

### Prezident İlham ƏLİYEV: “Su həyat deməkdir. İlk növbədə, insanların sağlamlığı böyük dərəcədə təmiz içməli sudan asılıdır”

Regionların sosial-iqtisadi inkişafına yönəldilən I Dövlət Proqramının qəbul edildiyi 2004-cü ildən bəri Azərbaycanda istər içməli su, istərsə də suvarma suyu ilə təminatı yaxşılaşdırmaq üçün genişmiqyaslı işlər görülüb, çoxsaylı layihələr həyata keçirilib. Bu ciddi məsələ daim dövlətin diqqət mərkəzində olub.

Ölkənin şirin su ehtiyatlarının azlığı, son illərdə müşahidə olunan qlobal iqlim dəyişikliyi və orta temperaturun yüksəlməsi, əsasən qonşu ölkələrdən daxil olan yerüstü su ehtiyatlarının, çaylarda sululuğun və yağıntıların xeyli azalması ortaya bir sıra problemlər çıxarır. Digər tərəfdən, əhalinin sayının artması, həyat standartlarının yüksəlməsi, ölkə iqtisadiyyatının, o cümlədən kənd təsərrüfatının inkişafı, əkin sahələrinin, suvarma və içməli su təchizatı şəbəkələrinin genişləndirilməsi nəticəsində suya tələbatın çoxalması su təhlükəsizliyinin təmin edilməsi istiqamətində təxirəsalınmaz tədbirlərin həyata keçirilməsini gündəmə gətirir.

*Ardı 6-cı səh.*

# “Qarabağ” yatağının dayaq bloku Azərbaycan xalqına və dövlətinə xidmət edəcək

## Prezident İlham ƏLİYEV: “Bu gün biz vaxtilə tərk edilmiş “Qarabağ” yatağına qayıdırıq, eyni qaydada biz doğma Qarabağ torpağımıza da qayıdacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”

*Əvvəli 1-ci səh.*













Əminəm ki, növbəti illərdə “Qarabağ” və digər yataqlar uğurla istismar ediləcək və ölkəmizə böyük fayda verəcək.

**- Bu böyük qurğu çox mürəkkəb və nəhəng konstruksiyaya malikdir. Qurğunun mühəndis-texnoloji xarakteristikalarının önəmini necə qiymətləndirirsiniz?**

- Bəli, bu, doğrudan da çox mürəkkəb konstruksiyadır və qurğunun çəkisi 16 min tondan çoxdur, hündürlüyü təqribən 190 metrə yaxındır. Nəzərə alsaq ki, “Qarabağ” yatağının yerləşdiyi ərazi Xəzər dənizində çox dərin hissəyə aiddir, əlbəttə ki, belə nəhəng qurğunun tikintisinə böyük tələbat var idi. Onu da bildirməliyəm ki, “Qarabağ” yatağında suyun dərinliyi 180 metrdir və hesab edirəm ki, məhz buna görə sovet vaxtında bu yataqdan neft-qaz çıxarılmamışdır. Çünki sovet dövründə bizim belə texnologiyalarımız olmamışdır, “Azəri”, “Çıraq” və “Günəşli” yataqlarının dərin hissəsi də toxunulmaz qalmışdır, müstəqillik dövrü üçün qalmışdır. Əks təqdirdə, quru yataqlarda olduğu kimi, dəniz yataqlarımız da tam boşaldılacaqdı və müstəqil Azərbaycanın inkişafı üçün enerji resursları qalmayacaqdı. Ona görə “Qarabağ” yatağının aşkarlanması və sonra yataqda işlərin görülməməsi əlbəttə ki, müstəqil Azərbaycan üçün böyük hədiyyə olmuşdur. Məhz bu gün aparılan siyasət nəticəsində biz bu işləri görə bilirik. Odur ki, bu, texnoloji baxımdan, mühəndislik baxımından çox nəhəng və çox mürəkkəb bir konstruksiyadır. Şadam ki, bunu Azərbaycan mütəxəssisləri inşa ediblər. Görülmüş işlərin mütləq əksəriyyəti Azərbaycan mütəxəssisləri, fəhlələri tərəfindən icra olunubdur.

Onu da bildirməliyəm ki, hazırda dərin özüllər zavodunda 5 minə yaxın insan çalışır. Bu nəhəng qurğunun və digər layihələrdə istifadə olunan qurğuların tikintisi burada məşğulluğu tam təmin edir. Mən indi maraqlandım, məlumat verildi ki, burada işləyənlərin orta əməkhaqqı təqribən 1200-1500 manat ətrafındadır və çox böyük peşəkarlıq tələb edən bir müəssisədir. Ona görə bu qurğu bir daha bizim qüdrətimizi göstərir. Bu, sırf Azərbaycan istehsalıdır və Azərbaycan dövlətinə, Azərbaycan xalqına xidmət edəcəkdir.

**- Bəs “Qarabağ” yatağından hasilat nə vaxt gözlənilir?**

- Əgər hər şey plan üzrə getsə, hesab edirəm ki, iki ildən sonra - 2022-ci ilin sonunda ilk qaz və ilk neft çıxarılmalıdır. “Qarabağ” yatağının neft potensialı 60 milyon ton səviyyəsində qiymətləndirilir. Ancaq mən tam əminəm ki, işlənmə dövründə bu rəqəm artacaq. Bunu deməyə əsas verən odur ki, “Qarabağ” yatağı “Azəri”, “Çıraq, və “Günəşli” yataqlarının yanında yerləşir, məsafə o qədər də böyük deyil. Xatırlayıram, “Azəri”, “Çıraq”, “Günəşli” yataqları üzrə kontrakt 1994-cü ildə hazırlanarkən o vaxt xarici tərəfdaşlar bu yataqların potensialını 511 milyon ton neft həcmində dəyərləndirmişdilər. Ancaq həyat onu göstərdi və bu gün bu təsdiq olunub ki, “Azəri, “Çıraq, “Günəşli” yataqlarının potensialı 1 milyard ton neftdən çoxdur. Ona görə bu və digər geoloji amillər deməyə əsas verir ki, “Qarabağ” neft yatağında daha böyük həcmdə təbii ehtiyatlar var. Hasilata gəldikdə isə, bu yataqdan ildə ən azı 1,5 milyon ton neft və 1,5-1,8 milyard kubmetr qaz hasil ediləcək. Əlbəttə ki, Azərbaycanda neft hasilatının sabit qalması və qaz hasilatının artırılması üçün bunun böyük faydası olacaqdır.

**- Hazırda Azərbaycanda digər nəhəng neft-qaz layihələri də həyata keçirilir. Onların icra vəziyyəti hansı səviyyədədir?**

- Deyə bilərəm ki, bütün layihələr uğurla icra edilir. Bu gün bu barədə mənə kiçik təqdimat edildi. Bildiyiniz kimi, “Azəri”, “Çıraq” və “Günəşli” yataqlarının işlənilməsi üzrə bütün işlər plan üzrə gedir. Burada inşa edilən yeni platforma onu göstərir ki, bu yataqların uzunmüddətli işlənməsi artıq reallıqdır. Bildiyiniz kimi, kontraktın müddəti uzadılıb və Azərbaycan bundan böyük fayda götürür, bizə bir neçə milyard dollar dəyərində bonus ödənilib.

“Azəri”, “Çıraq” və “Günəşli” yataqlarında hasilatın sabit saxlanması əlbəttə ki, bizim üçün vacib məsələdir. Eyni zamanda Azərbaycan ictimaiyyəti onu da bilməlidir ki, bizim qaz potensialımızın önəmli hissəsi “Azəri”, “Çıraq” və “Günəşli” yataqları hesabına formalaşır. Çünki orada hasil olunan qaz ümumi sistemimizə daxil edilir. Ona görə “Azəri-Çıraq-Günəşli” ilə bağlı bütün işlər plan üzrə gedir və bu yataq bizim əsas gəlir mənbəyimizdir. Bunu hər kəs bilməlidir.

Eyni zamanda, “Şahdəniz-2” layihəsi uğurla icra edilir. Bu, dünyanın ən böyük qaz-kondensat yataqlarından biridir. Bildiyiniz kimi, “Şahdəniz-2”-nin tammiqyaslı işlənilməsi bizə əlavə 16 milyard kubmetr qaz verəcək. Həm öz tələbatımızı ödəyəcəyik, həm də ki, ixrac üçün böyük həcm yaranacaqdır.

Gələn il “Abşeron” qaz-kondensat yatağından ilk qazın hasilatı gözlənilir. “Abşeron” yatağının işlənilməsinin iki mərhələsi olacaqdır. Birinci mərhələ nəticəsində 1,5 milyard kubmetr qaz hasil ediləcək və bu qaz Azərbaycanda istehlak olunacaq. Çünki artan sənaye potensialımız diktə edir ki, bizə əlavə resurslar lazımdır. Ona görə 1,5 milyard kubmetr qaz ölkə daxilində istehlak olunacaq. Biz “Abşeron” yatağının ikinci mərhələsinin başlanmasına da yaxınlaşırıq. Orada hasilat yəqin ki, 3-4 dəfə artıq olacaqdır. Bu da bizim qaz potensialımıza müsbət təsir göstərəcəkdir.

“Şəfəq-Asiman” yatağı üzrə işlər qrafik üzrə gedir. İndi qazma işləri aparılır. Bu yatağın da çox böyük potensialı var. Əlbəttə, qazma işləri ehtiyatların dəqiq həcmini göstərəcək. Ancaq yadımdadır ki, hələ Neft Şirkətində işlədiyim dövrdə bizim mütəxəssislər orada təqribən 400-500 milyard kubmetr həcmində qaz ehtiyatının mövcudluğunu qeyd etmişdilər. Hər halda, hesab edirəm ki, qazma işləri yaxın gələcəkdə başa çatacaq və bu haqda daha dəqiq məlumat olacaqdır.

Əlbəttə, indi bizim əsas diqqətimiz “Cənub qaz dəhlizi”nin başa çatmasına yönəldilib. Bu layihə də uğurla icra edilir. Bunun dördüncü və sonuncu layihəsi olan TAP artıq başa çatmaq üzrədir. Beləliklə, hesab edirəm ki, bir neçə aydan sonra Azərbaycan dövlətinin təşəbbüsü ilə və genişmiqyaslı beynəlxalq əməkdaşlıq nəticəsində 3500 kilometr uzunluğunda olan, bir-birinə bağlı üç qaz kəmərinin inşası tam başa çatacaqdır və Azərbaycan qazı artıq Avropa məkanına çatdırılacaq. Beləliklə, “Cənub qaz dəhlizi” tam istismara veriləcək. Bu, bizim üçün çox önəmli və hesab edirəm ki, tarixi hadisədir. Çünki bu, imkan verir ki, “Şahdəniz” yatağının tam işlənilməsi təmin edilsin.

Eyni zamanda onu da bildirməliyəm ki, “Cənub qaz dəhlizi” inşa olunmadan investor buraya və heç bir başqa layihəyə vəsait qoymazdı, yaxud da tərəddüd edərdi. Çünki, məsələn, “Abşeron” qaz-kondensat yatağından çıxarılacaq qazın ixracı üçün yol olmalıdır, həmçinin “Qarabağ” yatağından və digər yataqlardan çıxarılacaq təbii qazın da. Ona görə “Cənub qaz dəhlizi”nin əhəmiyyəti təkcə “Şahdəniz” layihəsi ilə məhdudlaşmır. Bu layihə icra olunmadan bizim enerji siyasətimiz yarımçıq qala bilərdi. Amma bu gün bizim enerji siyasətimiz ölkəmizin maraqlarını tam təmin edir. “Şahdəniz” yatağı ən azı yüz il bundan sonra Azərbaycanı və tərəfdaş ölkələri qazla təchiz edəcəkdir. Eyni zamanda biz ixrac coğrafiyamızı genişləndirmək əzmindəyik. “Şahdəniz” qazı Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan və İtaliyaya çatdırılacaq. Əgər Albaniyada qaz şəbəkəsi yaranarsa, Albaniya da bizim təbii tərəfdaşımız olacaqdır, biz oraya da qaz ixrac edə bilərik. Digər qonşu ölkələrə - Balkan bölgəsində yerləşən ölkələrə Azərbaycan qazının verilməsi mümkündür.

Ona görə “Cənub qaz dəhlizi” bizim tarixi nailiyyətimizdir və bunun başa çatmasına az vaxt qalır. Bir daha demək istəyirəm ki, bizim bütün yataqlarımızda görülən işlər məqsədyönlü şəkildə aparılır. Bir layihə o biri layihəni şərtləndirir. Əgər 1994-cü ildə “Azəri-Çıraq-Günəşli” üzrə kontrakt imzalanmasaydı, heç bir başqa layihədən söhbət gedə bilməzdi. Əgər “Şahdəniz” üzrə kontrakt imzalanmasaydı, bu gün biz nəinki başqa ölkələrin, öz enerji təhlükəsizliyimizi təmin edə bilməzdik. Çünki “Şahdəniz” bizim üçün əsas mənbədir. Biz bütün bu işləri görməklə Avrasiyanın yeni enerji xəritəsini tərtib edirik və Azərbaycan uzun müddət bundan sonra bir çox ölkələr üçün strateji tərəfdaş olaraq qalacaqdır.

**- Cənab Prezident, bu dayaq blokunun göndərildiyi yataq hamımız üçün doğma və əziz olan Qarabağ adını daşıyır. Bununla bağlı fikirlərinizi bölüşməyi xahiş edərdik.**

- Hesab edirəm ki, bu, rəmzi məna daşıyır. Çünki bildiyiniz kimi, Azərbaycan xarici tərəfdaşlarla bir çox yataqlar üzrə kontraktlar imzalamışdır. Ancaq heç də onların hamısı səmərə verməmişdir. Artıq bir çoxlarının icrası dayandırılıb, onların icrasına xitam verilib, qazılmış quyular ümidlərimizi doğrultmayıb. “Qarabağ” yatağının işlənməsinə gəldikdə, mən bir daha demək istəyirəm, hər zaman əminlik var idi ki, burada böyük potensial, böyük neft və qaz ehtiyatları vardır. Ancaq bayaq qeyd etdiyim kimi, 1990-cı illərdə üç quyu qazılmışdı, xarici tərəfdaş artıq bəyan etmişdi ki, bu, gələcək investisiya səmərəsiz olacaq və beləliklə, “Qarabağ” yatağı tərk edilmişdir. Biz, əslində, heç nə itirmədik. Çünki Azərbaycan o kəşfiyyat dövründə öz üzərinə heç bir maliyyə öhdəliyi götürməmişdi. Əksinə, hətta uğursuz nəticə də nəticədir, bizə əlavə geoloji məlumat veribdir. Bu gün Azərbaycan vaxtilə - 1990-cı illərdə tərk edilmiş “Qarabağ” yatağına qayıdır və bu, nəhəng dayaq bloku bunun əyani sübutudur.

Eyni zamanda 1990-cı illərin əvvəllərində Azərbaycanın o vaxtkı rəhbərliyi - AXC-Müsavat cütlüyü torpaqlarımızın işğal altına düşməsinə imkan yaratdı. Yəni, onların xəyanəti, satqınlığı, fərariliyi nəticəsində torpaqlarımız işğal altına düşmüşdür. Azərbaycan, - əgər belə analogiya aparmaq mümkündürsə, - Qarabağı tərk etmişdi. Biz 2016-cı ildə torpaqlarımızın bir hissəsini qaytardıq, işğalçıları o torpaqlardan qovduq və o ərazilərə həyat qayıtdı, vətəndaşlar qayıtdı, Azərbaycan qayıtdı. Əminəm ki, Azərbaycan öz doğma torpağına, Qarabağ torpağına qayıdacaq. Bizim ərazi bütövlüyümüz tam bərpa ediləcək, necə ki, bu gün biz vaxtilə tərk edilmiş “Qarabağ” yatağına qayıdırıq, eyni qaydada biz doğma Qarabağ torpağımıza da qayıdacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

**- Çox sağ olun, cənab Prezident. Minnətdarıq.**

- Sağ olun.

# Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12 (I kitab), maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 6, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289, 1298, № 12, maddələr 1437, 1445; 2016, № 4, maddələr 634, 636, 638, 653, № 5, maddə 845, № 6, maddələr 993, 1001, № 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, № 2, maddə 161, № 3, maddə 330, № 5, maddələr 694, 697, 700, 702, 733, № 7, maddələr 1268, 1271, 1293, № 11, maddələr 1968, 1978, № 12 (I kitab), maddə 2231; 2018, № 3, maddə 403, № 5, maddə 861, № 6, maddə 1154, № 7 (I kitab), maddə 1441, № 10, maddə 1972, № 11, maddə 2213, № 12, (I kitab), maddə 2472; 2019, № 4, maddə 586, № 7, maddə 1201, № 8 maddə 1367; 2020, № 3, maddə 223; Azərbaycan Respublikasının 2020-ci il 1 may tarixli 68-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 47.2-1-ci maddə əlavə edilsin:

"47.2-1. Məhkəmə tərəfindən ictimai işlər növündə cəzaya məhkum edilmiş şəxslərin üzərinə ictimai işlərin yerinə yetirildiyi yerlərdə elektron nəzarət vasitəsini gəzdirmək və həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət etmək vəzifəsi qoyulur.".

2. 71.3-cü və 76.6.1-ci maddələrə "ona xidmət" sözlərindən əvvəl "üzrsüz səbəbdən" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 iyun 2020-ci il*

# Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Vergi Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583; 2001, № 7, maddə 454, № 9, maddə 576, № 12, maddə 734; 2002, № 5, maddə 249, № 12, maddə 707; 2003, № 8, maddə 425, № 12 (I kitab), maddə 671; 2004, № 1, maddə 1, № 11, maddə 887, № 12, maddə 980; 2005, № 2, maddə 61, № 8, maddə 688, № 12, maddə 1081; 2006, № 12, maddələr 1005, 1026; 2007, № 1, maddə 4, № 6, maddə 597, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1192; 2008, № 7, maddə 602, № 11, maddə 960; 2009, № 7, maddə 506; 2011, № 1, maddə 14, № 7, maddələr 588, 603, № 12, maddə 1115; 2012, № 6, maddələr 500, 513, № 7, maddə 652, № 9, maddə 841, № 12, maddə 1226; 2013, № 2, maddə 91, № 4, maddə 366, № 11, maddə 1278, № 12, maddələr 1483, 1486, 1495; 2014, № 2, maddələr 94, 98, № 6, maddə 608, № 7, maddə 770, № 8, maddə 957, № 10, maddə 1158, № 12, maddə 1525; 2015, № 1, maddə 11, № 12, maddə 1433; 2016, № 2 (I kitab), maddə 207, № 3, maddələr 396, 402, № 5, maddə 848, № 6, maddələr 973, 974, 1015, № 7, maddə 1245, № 10, maddə 1603, № 11, maddələr 1752, 1792, 1793, № 12, maddələr 2001, 2037, 2046; 2017, № 2, maddə 146, № 5, maddələr 695, 723, 737, № 6, maddə 1055, № 7, maddə 1304, № 8, maddə 1509, № 12 (I kitab), maddələr 2219, 2251, 2270; 2018, № 2, maddə 149, № 5, maddə 863, № 6, maddə 1193, № 7 (I kitab), maddələr 1414, 1427, № 10, maddə 1962, № 11, maddələr 2186, 2210, № 12 (I kitab), maddələr 2498, 2509; 2019, № 1, maddə 30, № 4, maddə 590, № 5, maddələr 796, 801, 804, 812, 814, № 8, maddələr 1364, 1373, 1378, № 12, maddə 1894; Azərbaycan Respublikasının 2020-ci il 1 may tarixli 72-VIQD nömrəli, 8 may tarixli 90-VIQD nömrəli və 19 may tarixli 103-VIQD nömrəli qanunları) 30.6.11-ci maddəsinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 30.6.12-ci və 30.6.13-cü maddələr əlavə edilsin:

"30.6.12. "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq notariat hərəkətlərinin aparılması və bununla əlaqədar xidmətlərin göstərilməsi üçün notariuslara;

30.6.13. "İcra haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq icra hərəkətlərinin həyata keçirilməsi üçün icra məmurlarına.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 iyun 2020-ci il*

# "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci bəndini rəhbər tutaraq **qərara alır**:

"Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 157; 2006, № 6, maddə 478; 2007, № 10, maddə 938; 2018, № 7 (I kitab), maddə 1387) 11-ci maddəsinin birinci hissəsinin onuncu abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda on birinci abzas əlavə edilsin:

"İcra haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq icra hərəkətlərinin həyata keçirilməsində.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 iyun 2020-ci il*

# "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci və 6-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Notariat haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 10, № 6, maddə 414; 2001, № 5, maddə 293, № 11, maddə 687, № 12, maddə 740; 2002, № 5, maddə 241, № 6, maddə 328, № 12, maddə 706; 2004, № 5, maddə 318; 2005, № 4, maddə 281, № 8, maddə 699, № 10, maddə 903, № 11, maddə 993; 2007, № 1, maddə 4, № 2, maddə 69, № 8, maddə 745, № 11, maddələr 1053, 1075; 2008, № 6, maddə 462, № 7, maddə 602; 2009, № 1, maddə 5, № 7, maddə 517, № 11, maddə 878; 2010, № 7, maddə 597, № 11, maddə 938; 2011, № 4, maddə 258, № 12, maddə 1098; 2012, № 10, maddə 946; 2013, № 11, maddə 1271; 2014, № 11, maddə 1353; 2015, № 5, maddə 487; 2016, № 1, maddə 11, № 7, maddə 1243, № 12, maddə 2025; 2017, № 2, maddə 148, № 12 (I kitab), maddə 2236; 2018, № 7 (I kitab), maddə 1388, № 8, maddə 1673, № 11, maddə 2230; 2019, № 1, maddə 22, № 6, maddələr 993, 997, № 11, maddə 1681) 32-ci maddəsinin on ikinci-on dördüncü hissələri müvafiq olaraq on üçüncü-on beşinci hissələr hesab edilsin və aşağıdakı məzmunda on ikinci hissə əlavə olunsun:

"İcra haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq icra hərəkətlərinin həyata keçirilməsi ilə əlaqədar borclu şəxslərlə bağlı notariat hərəkətləri (vərəsəlik, ər-arvadın ümumi əmlakındakı paya mülkiyyət hüququ haqqında şəhadətnamələr, müqavilələr və etibarnamələr) və vərəsəlik işlərinin açılıb-açılmaması barədə məlumatlar icra məmurlarına elektron sorğular əsasında real vaxt rejimində verilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 iyun 2020-ci il*

# "Qrant haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu və 15-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Qrant haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 366; 2001, № 12, maddə 736; 2002, № 12, maddə 706; 2003, № 1, maddə 1; 2009, № 8, maddə 611; 2013, № 3, maddə 215; 2014, № 2, maddə 82, № 11, maddələr 1358, 1369; 2017, № 3, maddə 335; 2019, № 1, maddə 27) 4-cü maddəsinə aşağıdakı məzmunda 4-3-cü hissə əlavə edilsin:

"4-3. Qeyri-hökumət təşkilatları qrant müqavilələrinin (qərarlarının) "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikası Qanununun 24-3-cü maddəsinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının elektron məlumat sistemi vasitəsilə qeydə alınması üçün müraciət edə bilərlər.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 iyun 2020-ci il*

# "Qrant haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 30 iyun tarixli 158-VIQD nömrəli Qanununun tətbiqi və "Qrant haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 iyun tarixli 720 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Qrant haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 30 iyun tarixli 158-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Qrant haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 iyun tarixli 720 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 381; 2003, № 9, maddə 478; 2014, № 7, maddə 823; 2015, № 10, maddə 1125; 2016, № 8, maddə 1384; 2017, № 3, maddə 368) 2.5-ci bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.6-cı bənd əlavə edilsin:

"2.6. həmin Qanunun 4-cü maddəsinin 4-3-cü hissəsində "müvafiq icra hakimiyyəti orqanının elektron məlumat sistemi" dedikdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin "Fərdi elektron pəncərə" elektron məlumat sistemi nəzərdə tutulur.".

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Qrant haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 30 iyun tarixli 158-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 avqust 2020-ci il*

# "İcra məmurları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

"İcra məmurları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 18; 2001, № 11, maddə 687, № 12, maddə 731; 2003, № 1, maddə 23; 2004, № 2, maddə 57, № 3, maddə 133; 2006, № 11, maddə 928; 2007, № 1, maddə 4, № 7, maddə 712; 2010, № 7, maddə 591; 2011, № 6, maddə 477, № 7, maddə 584, № 12, maddə 1092; 2013, № 7, maddə 788; 2015, № 3, maddə 252; 2016, № 6, maddə 991; 2018, № 7 (I kitab) maddə 1423; Azərbaycan Respublikasının 2020-ci il 19 may tarixli 103-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 12-ci maddənin dördüncü-altıncı hissələri müvafiq olaraq beşinci-yeddinci hissələr hesab edilsin və həmin maddəyə aşağıdakı məzmunda dördüncü hissə əlavə edilsin:

"Müvafiq icra hakimiyyəti orqanının işçilərinin sosial müdafiəsinin gücləndirilməsi, həmçinin probasiya xidmətinin maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədi ilə cərimə və islah işləri növlərində cəzaların, habelə hüquqi şəxslərə tətbiq edilən cərimə növündə cinayət-hüquqi tədbirlərin icrası ilə əlaqədar daxil olan vəsaitin 43 faizi müvafiq icra hakimiyyəti orqanının hesabına köçürülür. Bu vəsaitdən istifadə qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur.".

2. 13-cü maddənin birinci hissəsinin birinci cümləsində "büdcəsi," sözü "büdcəsi və icra xidməti" sözləri ilə əvəz edilsin, ikinci cümləsinə isə "büdcəsi" sözündən sonra "və bu Qanunun 12-ci maddəsinin dördüncü hissəsində nəzərdə tutulan vəsait" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 iyun 2020-ci il*

# "İcra məmurları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 29 iyun tarixli 144-VIQD nömrəli Qanununun tətbiqi və "İcra məmurları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 5 yanvar tarixli 246 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "İcra məmurları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 29 iyun tarixli 144-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "İcra məmurları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 5 yanvar tarixli 246 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 25; 2002, № 5, maddə 262, № 8, maddə 478; 2011, № 4, maddə 278; 2018, № 7 (I kitab), maddə 1469; Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 18 iyun tarixli 1070 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.1-ci bəndə "dördüncü hissəsində" sözlərindən sonra "və 12-ci maddəsinin dördüncü hissəsinin ikinci cümləsində" sözləri əlavə edilsin;

1.2. 2.2-ci bəndə "ikinci hissəsində" sözlərindən sonra "və dördüncü hissəsinin birinci cümləsində (ikinci halda)" sözləri əlavə edilsin;

1.3. 2.5-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.6-cı bənd əlavə edilsin:

"2.6. həmin Qanunun 12-ci maddəsinin dördüncü hissəsinin birinci cümləsində "müvafiq icra hakimiyyəti orqanının işçiləri" dedikdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Aparatının Probasiya xidmətinin, Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi Aparatının Probasiya qurumunun və yerli probasiya qurumlarının işçiləri nəzərdə tutulur.".

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "İcra məmurları haqqında" Azərbaycan Respublikası Qanununun 12-ci maddəsinin dördüncü hissəsinin ikinci cümləsinə uyğun olaraq, cərimə və islah işləri növlərində cəzaların, habelə hüquqi şəxslərə tətbiq edilən cərimə növündə cinayət-hüquqi tədbirlərin icrası ilə əlaqədar daxil olan vəsaitdən istifadə qaydasını iki ay müddətində Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən etsin;

2.2. "İcra məmurları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 29 iyun tarixli 144-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 avqust 2020-ci il*

# "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

"Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 348; 1999, № 11, maddə 609; 2000, № 11, maddə 776; 2001, № 9, maddə 576, № 12, maddələr 733, 736; 2002, № 12, maddə 706; 2004, № 7, maddə 505, № 12, maddə 976; 2005, № 1, maddə 2, № 12, maddə 1082; 2006, № 11, maddə 923, № 12, maddə 1018; 2007, № 1, maddə 4, № 12, maddə 1193; 2008, № 2, maddə 49, № 4, maddə 254, № 6, maddə 462, № 7, maddə 602; 2009, № 12, maddə 970; 2010, № 4, maddə 276, № 11, maddə 949; 2011, № 10, maddə 883; 2013, № 11, maddə 1284, № 12, maddə 1487; 2014, № 10, maddə 1171; 2016, № 4, maddə 657, № 6, maddə 971; 2017, № 3, maddə 336, № 7, maddə 1279; 2018, № 3, maddələr 369, 396, № 5, maddələr 870, 894, № 12 (I kitab), maddə 2502; 2019, № 1, maddə 35, № 3, maddə 380; Azərbaycan Respublikasının 2020-ci il 1 may tarixli 71-VIQD nömrəli və 8 may tarixli 89-VIQD nömrəli qanunları) 18-ci maddəsinin birinci hissəsinin altıncı abzası yeddinci abzas hesab edilsin və aşağıdakı məzmunda altıncı abzas əlavə edilsin:

"qanunla nəzərdə tutulmuş hallarda müvafiq icra hakimiyyəti orqanının mərkəzləşdirilmiş elektron informasiya sistemində sığortaedənlər və sığortaolunanlar barədə olan məlumatların dövlət orqanlarına (qurumlarına) verilməsini təmin edir;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 iyun 2020-ci il*

# "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 30 iyun tarixli 154-VIQD nömrəli Qanununun tətbiqi və "Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 7 aprel tarixli 568 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 30 iyun tarixli 154-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 7 aprel tarixli 568 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 349; 2006, № 7, maddə 587; 2007, № 12, maddə 1226; 2009, № 8, maddə 630; 2016, № 6, maddə 1021, № 9, maddə 1464; 2018, № 12 (I kitab), maddə 2578; 2019, № 7, maddə 1220; 2020, № 5, maddə 562; Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 2 iyun tarixli 1046 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.1-3-cü bənddə "1-ci hissəsinin on birinci abzasında" sözləri "birinci hissəsinin beşinci və altıncı abzaslarında" sözləri ilə əvəz edilsin;

1.2. 2.3-cü bənddə "dördüncü (hər iki halda) və beşinci" sözləri "ikinci hissəsinin üçüncü (hər iki halda) və dördüncü" sözləri ilə, "altıncı" sözü "dördüncü" sözü ilə əvəz edilsin;

1.3. 2.4-cü bənddə "dördüncü (hər iki halda) və beşinci" sözləri "ikinci hissəsinin üçüncü (hər iki halda) və dördüncü" sözləri ilə, "iyirmi üçüncü abzaslarında, 18-ci maddəsinin birinci hissəsinin altıncı" sözləri "iyirmi ikinci abzaslarında, 18-ci maddəsinin birinci hissəsinin dördüncü" sözləri ilə əvəz edilsin;

1.4. 2.6-cı bənddə "iyirmi üçüncü" sözləri "iyirmi ikinci" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 30 iyun tarixli 154-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 avqust 2020-ci il*

# Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 4 iyun tarixli 276 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 4 iyun tarixli 276 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 491; 2011, № 11, maddə 995; 2013, № 9, maddə 1048; 2014, № 9, maddə 1060, № 10, maddə 1177; 2015, № 2, maddə 117; 2016, № 5, maddə 867, № 11, maddə 1798; 2017, № 5, maddələr 777, 818; 2018, № 12 (I kitab), maddə 2586; 2019, № 6, maddə 1029) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 13-cü hissədə "Lisenziyalar və icazələr" portalı, Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri və "Giriş-çıxış və qeydiyyat idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi" sözləri "Giriş-çıxış və qeydiyyat idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi, Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri, "Lisenziyalar və icazələr" portalı və "Elektron icra" informasiya sistemi" sözləri ilə əvəz edilsin.

2. Aşağıdakı məzmunda 13.6-cı və 13.7-ci bəndlər əlavə edilsin:

"13.6. "Elektron icra" informasiya sistemi tərəfindən təmin olunan məlumatlar:

13.6.0. icra sənədlərinə əsasən mülki hüquqi öhdəliyin və inzibati tənbehin olması barədə məlumatlar.

13.7. Sistem tərəfindən "Elektron icra" informasiya sisteminə təqdim olunan məlumatlar:

13.7.1. Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilən sənədlər haqqında məlumatlar;

13.7.2. Azərbaycan Respublikasında müvəqqəti və ya daimi yaşamaq üçün icazə almış, habelə müvəqqəti olma müddəti uzadılmış və ya qaçqın statusu almış şəxslər haqqında məlumatlar;

13.7.3. əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin olduğu yer üzrə qeydiyyatı haqqında məlumatlar.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 avqust 2020-ci il*



# TƏHSİL - gələcəyin inkişaf faktoru

*Əvvəli 1-ci səh.*

Çünki cəmiyyətin hər bir üzvü təhsil sisteminin içində yetişir. Bu mühitdə qazandığı müsbət meyilləri də, təhsil mühitində fərdi dünyasından kənarlaşdırmağa müvəffəq ola bilmədiyi mənfi təzahürləri də öz davranışları ilə sosial münasibətlər sisteminə daşıyır.

Bu baxımdan, sosial-iqtisadi həyatın müasirləşdirilməsində təhsilin rolu təkcə təhsil alanın qazandığı bilik və bacarıqların iqtisadi amilə çevrilməsi ilə məhdudlaşmır. Təhsil prosesində əldə olunan bilik və bacarıqlar, həmçinin etik-əxlaqi norma və dəyərlər hər bir təhsil alanın cəmiyyətin layiqli üzvü olması üçün münbit zəmin yaradır. Onu biliyi və etik davranışı sayəsində örnək olan həmkara, nümunəvi ailə üzvünə və vətəndaşa çevirir.

Ona görə də tarixin bütün dövrlərində təhsil insanların həyatında müstəsna əhəmiyyət kəsb etmişdir. Müasir dövrün qlobal çağırışları isə bu əhəmiyyəti daha da artıraraq təhsildə həlli vacib olan bir sıra məsələləri dövlət və cəmiyyət həyatının bir nömrəli prioritetinə çevirir. Çünki müasir dövrdə təhsilin inkişafı istənilən ölkədə əhalinin rifahının yaxşılaşmasının, fərdin həyatının daha yüksək səviyyədə qurulmasının alternativsiz təminatıdır.

## Təhsil tariximizdə yeni bir mərhələ

Bir neçə vaxt əvvəl Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə ölkəmizə yeni Təhsil naziri təyin edildi. Dövlət rəhbərimiz tərəfindən xarici ölkələrin nüfuzlu ali məktəblərində təhsil almış bacarıqlı, yenilikçi, peşəkar bir gəncə bu yüksək vəzifəyə etimad göstərilməsi gənc nəslin gücü ilə cəmiyyətdə səmərəli dəyişikliklər yaratmaq məqsədinin daha bir təzahürü kimi rəğbətlə qarşılandı. Bununla Prezident milli təhsil tariximizdə xüsusi bir mərhələnin başlanması arzusunu ifadə etdi. Əminik ki, Azərbaycanda təhsillə hansı şəkildə isə bağlılığı olan mütləq əksəriyyət bu mərhələnin mühüm keyfiyyət dəyişikliklərini gündəlik həyatında duyub, məqsədyönlü fəaliyyət göstərəcək. Yeni Təhsil naziri Emin Əmrullayev 2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə dövlət proqramı çərçivəsində xarici universitetlərdə təhsil alıb. Bu proqram cənab İlham Əliyevin təşəbbüsü əsasında hazırlanaraq qəbul edilmişdir.

Sərəncam imzalanan gün yeni təhsil nazirini videokonfrans formatında qəbul edərək öz tapşırıqlarını verən Azərbaycan Prezidentinin çıxışı, toxunduğu bir çox vacib məsələlər yeni bir gələcəyə mərhələli hazırlığın çağırışı idi. Bu çıxışın hər cümləsində müdrik rəhbərin həyatımıza strateji baxışı hiss edilirdi. Xalqı gələcəyə hazırlamaq arzusu duyulurdu. Cənab İlham Əliyevin irəli sürdüyü tezislərdən təhsil işığında Azərbaycan xalqının, dövlətinin parlaq sabahına doğru aydın yol görünürdü. Bu nitqin leytmotivi Azərbaycan təhsilinin keyfiyyətini yüksəltməkdən, onun səviyyəsini dünya təhsil standartlarına bərabərləşdirməkdən, milli-mənəvi-əxlaqi dəyərləri Azərbaycan təhsilinin önündə yaşatmaqdan ibarət idi. Bu siyasətin mənası xalqa yüksək səviyyədə xidmət etməyi bacaran, cəmiyyətin xoşbəxt gələcəyini yaradan kadrların yetişməsini təmin etməkdir. Çünki insanı yetişdirən, cilalayan, məhz təhsildir. Tarixən Azərbaycanın təhsili milli mentalitetimizin etibarlı keşikçisi, maarifçi babalarımızdan qalan ən dəyərli xəzinə kimi bugünümüzədək gəlib çatmışdır. Bunun özü qədirbilən xalqımızın yaşatdığı təhsil siyasətidir. Milli ənənələrimiz, mənəvi-əxlaqi keyfiyyətlərimiz xalqımızın həyat gücünü, gələcək arzularını əks edən güzgüdür. Bunun sayəsində biz sürətlə tərəqqi edən bir millət kimi dünya sivilizasiyası dəyərlərinin köklü əhəmiyyətini dərk edirik.

Ölkəmizin rəhbəri öz liderlik keyfiyyətləri ilə XXI əsrin Azərbaycanında innovasion elita yetişdirilməsi siyasətini məhz təhsildən başlayıb. Onun diqqət və qayğısı ilə Azərbaycanın müasir təhsil modeli yaranıb. Minlərlə Azərbaycan gənci dünyanın nüfuzlu ali məktəblərində ölkəmizin inkişafına töhfə vermək üçün peşəkar mütəxəssis kimi yetişir. Bu gün yaşadığımız modern cəmiyyətin əsas güc mənbəyi zamanı qabaqlayan insan ağlıdır. Bu, yaşından asılı olmayaraq, innovasiyalara meyilli elitadır, modernləşmə siyasətinin təməl qoyanlarıdır.

Bu proqram çərçivəsində minlərlə Azərbaycan gənci xaricdə təhsil arzusuna qovuşdu. Müasir biliklərə, yeni dövrün innovasiyalarına yiyələndi. Vətənə peşəkar kadrlar kimi dönüb cəmiyyət həyatının müxtəlif sahələrinə fayda verməyə başladı. Bu gün müxtəlif fəaliyyət sahələrində özünü göstərən müsbət trendlər, inkişafa doğru dəyişikliklər, həm də bu gənclərin özləri ilə gətirdikləri mütərəqqi təcrübələrin sayəsindədir. Onların formalaşdırdıqları xoş ənənələrin təsiridir və bütün bunlar müdrik bir bağbanın, öz xalqının bu gününü və gələcəyini düşünən dövlət adamının Vətən bağında əkdiyi ağacların barıdır.

Azərbaycanın yeni Təhsil nazirinin bu gənclərdən biri olması Azərbaycan dövlətinin onları heç zaman diqqətdən kənarda qoymadığının bariz göstəricisidir. Bu təyinat öz potensiallarını reallaşdırmaq, Vətənə fayda vermək üçün bu gənclərə yaradılmış şəraiti, onlara göstərilən dəstəyi aydın nümayiş etdirir.

Bu, həm də Azərbaycan Xalq Cümhuriyyəti dövründə 100 tələbə ilə əsası qoyulan, sovet Azərbaycanına rəhbərliyi dövründə Ulu Öndər Heydər Əliyevin siyasəti ilə minlərlə gəncin təhsil ardınca keçmiş ittifaqın ən nüfuzlu ali məktəblərinə göndərilməsi ilə genişləndirilən dövlətçilik addımlarının davamıdır.

Azərbaycan dövləti təhsil almaq üçün xarici universitetlərə göndərilən və məzun olduqdan sonra xarici ölkələrdə qalıb çalışan gənclərimizin də daim yanındadır. Onlara lazımi dəstəyini heç zaman əsirgəmir. Çünki bu gənclər xaricdəki istinadgahımız, milli qürurumuz, uzaqlardakı Azərbaycanımızdır. Bizim ölkə hüdudlarından kənarda eşidilən səsimiz, sözümüz, nəfəsimizdir. Onların uğurları nə qədər bol olarsa, mövqeləri, dayaqları nə qədər möhkəmlənərsə, Azərbaycanın da nailiyyətlərinin hüdudları bir o qədər genişlənər, etibarlı olar.

Ermənistanın Azərbaycana son hərbi təxribatlarına qarşı dünyanın müxtəlif ölkələrində aksiyalar keçirən diaspor nümayəndələrimizin fədakarlığını hamımız gördük. Azərbaycanın qanı, geni, qeyrəti ilə yaşayan təəssübkeşlik özünü bütün dünyaya göstərdi. Belə bir həmrəylik siyasəti meydana qoyan mütəşəkkil güc Azərbaycanın bu sahədə də xeyli uğurlar əldə etdiyini göstərdi. Xaricdə təhsil alıb qlobal dünyamızın müxtəlif səmtlərində çalışan, yaşayan gənclərimizin də burada çox böyük rolu var. Bizi istəməyən qüvvələr zaman keçdikcə belə gənclərimiz sayəsində qarşılarında qüdrətli Azərbaycan görürlər. Daha mütəşəkkil, həmrəy qüvvə ilə qarşılaşıb öz yerlərini dərk etməyə məcbur olurlar.

## Təhsilin strateji hədəfləri

Cənab İlham Əliyev, demək olar ki, bütün çıxışlarında mükəmməl təhsilə, müasir dövrün bilik və bacarıqlarına yiyələnməyin vacibliyini önə çəkir. Cəmiyyətimizə, xüsusilə gənclərimizə bununla bağlı zəruri tövsiyələrini verir. Ölkə Prezidentinin yeni Təhsil naziri Emin Əmrullayevin qəbulu zamanı söylədiyi fikirlərin özəlliyi, mənası və mahiyyəti, proqram xarakterli tövsiyələri təhsildə müəyyənləşdirilmiş strateji hədəflərə mükəmməl diqqətin yönəldilməsi ilə bağlı idi.

Zənnimizcə, Azərbaycan təhsilinin, ümumilikdə cəmiyyətimizin bugünkü və gələcək nailiyyətlərinin mühüm bir amili məhz cənab İlham Əliyevin həmin qəbulda irəli sürdüyü vəzifələrin layiqincə yerinə yetirilməsindən asılı olacaq.

Dövlət rəhbərimiz, ilk növbədə, təhsil sahəsində bu günə qədər aparılan islahatların daha da dərinləşdirilməsi vəzifəsini aktuallaşdırdı. Məlumdur ki, milli təhsilimizdə islahatlar davamlı xarakter daşıyır. Bu, həm Azərbaycanın sosial-iqtisadi inkişafından, həm də ümumiyyətlə, dünyadakı yeni inkişaf trendlərindən irəli gələn prosesdir.

Bu gün dünyanın əksər ölkələrində təhsil sisteminin təkmilləşdirilməsi transformasiya dövründən keçir. Çünki müasir çağırışlar dünyada təhsil sistemini büsbütün dəyişir. Əmək bazarında tələb və təklif mütənasibliyi dəyişir. Bəzi peşələr sıradan çıxır, yerinə yeni peşələr və istiqamətlər yaranır. Bundan başqa, Azərbaycanda aparılan köklü islahatların özü də ayrı-ayrı sahələr üzrə beynəlxalq təcrübəyə, mükəmməl bilik və bacarıqlara malik peşəkar kadrlara tələbatı artırır. Bu da təbiidir. Ölkəmiz qloballaşma proseslərinin fəal iştirakçısıdır. İqtisadiyyatımız dünya iqtisadi sisteminin tərkib hissəsinə çevrilib. Biz bu sistemlə birgə inkişaf etməliyik. Tərəqqi imkanlarını reallığa çevirən isə məhz peşəkar kadrlardır.

Biliklərə əsaslanan iqtisadiyyata transformasiya əslində informasiya cəmiyyətinin tələblərinə uyğun yüksək hazırlığa malik mütəxəssislərə ehtiyacı artırır. Qara qızılı insan kapitalına çevirmək labüdlüyü yaranır. Artıq bütün bəşəriyyət anlayır ki, müasir dünyamızda ən qiymətli sərvət insandır, onun bilik və bacarıqlarıdır. Bu sərvəti davamlı olaraq zənginləşdirmək və realizə etmək zəruridir.

Cənab İlham Əliyevin da xatırlatdığı kimi, inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, həmin ölkələrdə əldə edilmiş tərəqqi təhsilin yüksək səviyyəsi ilə bağlıdır. Təhsilin səviyyəsi, eyni zamanda, elmi-texniki tərəqqini də yüksək dərəcədə şərtləndirir. Bu, ölkələrin ən yüksək inkişaf səviyyəsinə təbii resurslar vasitəsilə deyil, məhz bilik, savad, təhsil, elm, yetkin insan ağlının hesabına çatdığını göstərir.

Prezident İlham Əliyev hələ illər öncə Azərbaycanda qara qızılın insan kapitalına çevrilməsi prosesinin vacibliyini strateji hədəf kimi irəli sürdü və əməli surətdə inkişaf etdirdi. Bu ali niyyətin reallaşdırılması üçün davamlı islahatlar apardı. Həmin islahatların təsiri ilə indi ölkəmizdə tamamilə yeni təfəkkürlü, müasir nəsil yetişib. Gənclər bu gün cəmiyyət həyatının bütün önəmli sahələrində yenilik meyillərini ifadə edirlər. Yeni nəsillərin bacarıqları, bilikləri, ən müasir texnologiyalara maraqları, Azərbaycanda müxtəlif tarixi hadisələr zamanı onların fəallığı, təəssübkeşliyi, təşəbbüskarlığı bütünlükdə cəmiyyətin inkişafından xəbər verən göstəricilərdir.

## İnkişaf təhsildən başlanır

Əksər ölkələrdə olduğu kimi, Azərbaycanda da elm və təhsilin maddi-texniki bazası, eləcə də kadr potensialı əsasən XX əsrdə formalaşmışdı. Son illərdə isə iqtisadiyyatımız, elmimiz, təhsilimiz, mədəniyyətimiz daha geniş inteqrasiya proseslərinə cəlb olunub. Həyata keçirilən tədbirlər sayəsində həm infrastruktur yenilənir, həm də kadr potensialı müasir dünyanın çağırışlarına uyğun tərzdə formalaşdırılır.

Müasir mərhələdə ölkəmizin iqtisadi qüdrəti gənclərimizin yeni bilik, bacarıq, informasiya və texnologiyaları qavraması qabiliyyəti ilə bilavasitə bağlıdır. Ona görə də Prezident cənab İlham Əliyev mövcud intellektual potensialın zənginləşdirilməsini, elm və təhsil ocaqlarımızın iqtisadi islahatlarla həmahəng inkişaf etdirilməsi məsələsini öz çıxışlarında dönə-dönə aktuallaşdırır.

Aparılan köklü islahatlar ölkənin müxtəlif dövlət qurumlarında, beynəlxalq təşkilatlarda, bank-maliyyə sistemlərində, eləcə də özəl sektorda idarəetmənin, mədəniyyətin, elmin, təhsilin, səhiyyənin və başqa sahələrin müasir standartlara cavab verən yeni bir mərhələyə keçidini təmin edir. Bu prosesin ən mühüm amili olan kadr potensialının formalaşdırılması missiyasını isə Azərbaycan təhsili yerinə yetirir. Ona görə də Prezident milli təhsil sistemimizin ölkənin ümumi inkişafı tələblərinə uyğunlaşdırılmasını, ən müasir çağırışlara hazır olmasını əsas tapşırıq və istiqamət kimi irəli sürür.

## Yeniləşən Vətənin yeni məktəbləri

Son illər Azərbaycanda təhsilin maddi-texniki bazasının müasirləşdirilməsi istiqamətində çox böyük, diqqət çəkən işlər görülüb. 3500-dən çox məktəb tikilib. Yaxud əsaslı təmir edilib. Ali məktəblər üçün yeni binalar, tədris kampusları inşa olunub. Beynəlxalq təcrübəyə əsaslanan yeni ali məktəblər yaradılıb. Hazırda ən reytinqli xarici ali təhsil müəssisələrinin Azərbaycanda filialları açılıb. Ölkəmizdə 3 xarici ali məktəbin filialı fəaliyyət göstərir və onların sayının artırılması perspektivləri mövcuddur.

Ölkə təhsilinin inkişafında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xidmətləri çox böyükdür. Heydər Əliyev Fondunun yarandığı gündən aparıcı bir fəaliyyət sahəsi var: bu, təhsil və geniş mənada sosial tərbiyə məsələləridir. Həmin məsələlər, əslində, xalqımızın xoş gələcəyini yaratmağın əsas istiqamətləridir. Bu gün hər bir dövlətin, hər bir cəmiyyətin bundan önəmli hədəfi yoxdur. Xanım Mehriban Əliyevanın rəhbərliyi ilə uzun illərdir ki, Heydər Əliyev Fondu Ulu Öndərin təməlini qoyduğu və Azərbaycan Prezidentinin əzmlə davam etdirdiyi təhsil islahatlarına miqyası görünməyən, nadir dəyərli töhfələr verir. İlk növbədə təhsilin maddi-texniki bazasının inkişaf etdirilməsi, onun keyfiyyətinin yüksəldilməsi, dünya təhsili ilə əlaqələrinin yaradılması prosesinə daima diqqət yetirir.

Mehriban xanımın təşəbbüsü ilə həyata keçirilən "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi milli təhsil tariximizin müstəsna səhifəsidir. Bu layihə milyonlarla vətəndaşımızı, övladlarımızı yaşadıqları məkanda hər növ şəraitə malik, yeni, işıqlı, müasir məktəblərdə təhsil almaq arzusuna qovuşdurdu. Həm də təhsili cəmiyyətimiz üçün yeni bir dəyərə çevirdi. Gənc nəslin keyfiyyətli təhsil almaq, uğurlu karyera qurmaq, cəmiyyətə fayda vermək arzusunun çıraqbanı oldu.

Məktəblərin yeniləşməsi və zənginləşməsi prosesi bu gün də davamlı olaraq inkişaf edir. Ucqar dağ kəndlərində son dərəcə vacib olan modul tipli məktəblər tikilir. Burada məqsəd keyfiyyətli təhsilin, müasir təhsil infrastrukturunun hər bir Azərbaycan vətəndaşı üçün əlçatan olmasıdır. Yaxınlığından, uzaqlığından, coğrafi şəraitindən asılı olmayaraq, hər bir insan üçün yüksək təhsil imkanının yaradılmasıdır. Xanım Mehriban Əliyevanın təşəbbüsləri təhsildə ictimai düşüncəmizə, dünya ilə informasiya mübadilələri aparmağa, sosial-tərbiyə təsisatlarımızı qurmağa və bu proseslərin uğurlu həllinə böyük töhvələr verir.

## Müəllim nüfuzu yüksəlir

Ölkədə aparılan təhsil siyasəti prosesi göstərir ki, bu sahədə infrastrukturun müasirləşdirilməsi hələ işin yarısıdır. Təhsildə keyfiyyətin təmin olunması üçün də paralel tədbirlərin görülməsi vacibdir. Azərbaycan Prezidenti təhsildə keyfiyyət amilini şərtləndirən əsas məsələlərdən biri kimi məhz müəllimlərin peşəkarlığını önə çəkir. Həqiqətən, təhsilin səviyyəsi müəllimlərin peşəkarlığından keçir. Biliyi şagirdə, tələbəyə əxz etdirən, ötürən, gəncləri insan, vətəndaş, peşəkar kimi yetişdirən məhz müəllimlərdir. Bəzən bir peşəkar müəllim aid olduğu icmada çox böyük dəyişikliklər yarada bilir. Buna görə də biz bu gün müəllim hazırlığına milli dəyərlərimizin, milli həyat gücümüzün yenidən yaradılması məsələsi kimi baxmalıyıq. Çünki müəllimlər təhsildən, onun islahatlarından gözlədiklərimizin canlı yaradıcısı, canlı daşıyıcısı, kamil, hərtərəfli insan yetişdirilməsini təmin edən zəngin bir mənbə olmalıdır. Çünki əsil müəllimsiz əsl müəllim yetişə bilməz!

İnnovativ islahatların, informasiya texnologiyalarının vasitəsilə bu gün təhsilimizi çox ağır durumdan xilas edən distant təhsilin tətbiqi dövründə də bilikli, bacarıqlı, vətəndaş qeyrətli müəllimlərimizin inkaredilməz fədakar rolunu gördük və qəlbimizdə onlara minnətdarlıq duyğuları yarandı. Övladlarımızın parlaq gələcəyini yaradan müəllimlərimizin nüfuzu, hörməti qədirbilən xalqımızın və dövlətimizin nəzərində daha da ucaldı. Bu gün Azərbaycan dövlətinin həyata keçirdiyi inkişaf layihələri peşəkar müəllimlərimizin sayını artırır. Eyni zamanda cəmiyyətdə müəllim nüfuzunu yüksəldir. Bu, belə də olmalıdır. Müəllimə verilən dəyər, hörmət istənilən cəmiyyət üçün müstəsna dərəcədə əhəmiyyətlidir. O cəmiyyət irəli gedir ki, öz müəllimlərinin qədrini bilir.

Azərbaycanda müəllim peşəsinə hər zaman böyük maraq göstərilib. Cəmiyyətin ziyalısı kimi eldə-obada müəllimin nüfuzu əziz tutulub, sözü eşidilib. Son illər dövlətimizin həyata keçirdiyi tədbirlər bu ənənəvi hörməti daha da yüksəldir. Diaqnostik qiymətləndirmələrdən uğurla keçən müəllimlərin layiqli həyatının təmin olunması üçün əməkhaqları artırılır. Onlara əlavə stimul yaradılır. Müəllim sosial təminat etibarilə kifayət qədər yaxşı yaşayan, heç bir maddi sıxıntısı olmayan peşə sahibinə çevrilir. Son illər müəllim peşəsini seçən gənclərimizin sayının artması, ali məktəblərə qəbul zamanı ən yüksək ballar toplamış gənclərin məhz müəllim peşəsinə üstünlük verməsi də bu sənətin cəmiyyətdə artan nüfuzunun göstəricisidir. Eyni zamanda burada dövlətimizin son illər inşa etdirdiyi müasir, abad, işıqlı, zəngin maddi-texniki bazaya malik məktəblərdə çalışmaq, təhsildə aparılan inkişaf proseslərinin bir parçası olmaq arzusunun da təsiri böyükdür.

## Əmək bazarındakı tələbat nəzərə alınmalıdır

Müasir dünyamızda təhsil sürətlə dəyişən, yeni inkişaf tendensiyaları ilə zəngin sahələrdəndir. Təhsil sahəsində inkişafa nail olmaqdan ötrü bu tendensiyaların davamlı izlənməsi, çevik addımların atılması çox vacibdir. Azərbaycan Prezidenti də təhsillə bağlı dünyada gedən müsbət tendensiyalara daim fikir verilməsini vacib sayır. İnkişaf etmiş ölkələrdə aparılan islahatların dərindən təhlil olunmasını, uyğun təcrübələrin Azərbaycanda tətbiqini mühüm vəzifə kimi qarşıya qoyur.

Eyni zamanda təhsilin vasitəsilə ölkəmizdə intellektual potensialın artırılması ilə yanaşı, əmək bazarındakı tələbatların da nəzərə alınmasını zəruri hesab edir. *"Xüsusilə ali məktəblərə qəbul mərhələsində bütün bu məsələlər dərindən təhlil edilməlidir. Bizə hansı sahə üzrə nə qədər mütəxəssis lazımdır? Humanitar sahədə fəaliyyət göstərəcək nə qədər mütəxəssis lazımdır? Nə qədər texniki peşə sahibləri lazımdır? ...Bizim təhsilimizin əsas istiqamətləri ölkəmizin sənaye və iqtisadi inkişafı ilə tam bağlı olmalıdır".*

## Dördüncü sənaye inqilabının çağırışları

Bu gün dünya dördüncü sənaye inqilabı dövrünə qədəm qoyub. Geniş rəqəmsallaşma, cəmiyyət həyatının müxtəlif sahələrində innovativ həllərin tətbiqi bu yeni inkişaf mərhələsinin əsas meyilləridir. Bu meyillər həyatımızı dəyişir. Ənənəvi peşələrə də ciddi təsir göstərir. O qədər də intellektual bilik və bacarıqlar tələb etməyən bir sıra peşələr mövqeyini itirir. Əvəzində isə rəqəmsal texnologiyalarla iş səriştəsi tələb edən peşələr yaranır.

Məsələn, adi bir nümunə gətirək: uzun illər poçtalyon peşəsi çox yayılmışdı. Bu peşə yenə qalıb. Amma fəaliyyət miqyası bizim uşaqlıq və gənclik illərində gördüyümüz kimi deyil. O dövrün poçtalyonları qəzet-jurnalları, məktub və teleqramları ünvanlarına çatdırardılar. İndi sənəd dövriyyəsi rəqəmsallaşdığından, insanlar mətbuat orqanlarını daha çox elektron resurslardan oxumağa vərdiş etdiklərindən poçtalyon peşəsinə tələbat da azalır. Amma bu sənətə yaxın başqa peşələrə tələbat genişlənir. Məsələn, onlayn sifariş ilə evə çatdırılma xidmətlərinin inkişafı kuryer peşələrinə tələbatı artırır. İndi şəhərdə yol gedərkən gənc kuryerlərin motosikl, yaxud velosipedlə hansısa sifarişləri ünvanlara çatdırmaq üçün tələsdiklərini görürük. Proqnozlara görə, yaxın gələcəkdə evə çatdırılma xidmətləri artıq insanlardan deyil, dronlardan istifadə edilməklə yerinə yetiriləcək. Amma dronları da idarə edənlər yenə adamlar olacaq. Deməli, evə çatdırılma xidməti ilə maraqlanan gənclərimiz indidən bu sahədəki yeni texnologiyaları öyrənməlidirlər. Müvaifiq bilik və bacarıqlara yiyələnməlidirlər ki, o məqam yetişəndə nəinki bu sahədə çalışsınlar, hətta bu fəaliyyət növünü ölkəmizdə elə özləri qura bilsinlər.

Yaxud pandemiya ilə bağlı karantin dövründə müəllimlərimizin tədrisi onlayn qaydada davam etdirmələri məsafədən təhsilin nə qədər böyük imkanlar yaratdığını göstərdi. Həyat normaya döndəndən sonra da bu texnoloji vərdişlər qorunacaq, onlardan istifadə ediləcək. Deməli, onlayn tədris vərdişlərinə malik peşəkar müəllimlərə tələb daha da artacaq.

Texnologiyaların inkişafı nəticəsində tədricən sıradan çıxan peşələr üzrə kadrların hazırlanmasına isə artıq ehtiyac yoxdur. Bunun əvəzində əmək bazarında ehtiyac artan peşələr üzrə kadr hazırlığına fikir verilməlidir. Azərbaycan Prezidentinin strateq kimi böyük uzaqgörənliklə irəli sürdüyü vəzifələr bütün bu reallıqlardan irəli gəlir.

## Təhsil mühitdir

Əmək bazarındakı peşə ehtiyaclarının öyrənilməsini zəruri edən bir mühüm amil də var. Bu, əhalimizin artması, demoqrafik tərkibin yenilənməsi ilə bağlıdır. Azərbaycanda gənclər əhalinin böyük qismini təşkil edir. Bu baxımdan, Azərbaycan xalqı dünyanın ən gənc xalqlarındandır. Belə bir resurs, gəncliyin enerjisi və fərdi inkişaf istəyi, ölkənin gələcək tərəqqisi üçün çox böyük perspektiv deməkdir. Sadəcə olaraq onlara müasir çağırışlara uyğun bilik və bacarıqlar, innovativ texnologiyalarla iş vərdişləri öyrətmək lazımdır ki, həm işsizlik problemləri yaranmasın, həm də gənclərimiz qlobal inkişaf proseslərinin bir hissəsi kimi öz imkanlarını reallaşdıraraq həyatlarını təmin edə bilsinlər. Bu baxımdan, peşə təhsili müəssisələrinin çox böyük potensialı var.

Təhsil həm də bir mühitdir. Bu mühiti yaradan təkcə məktəblər, ali və orta ixtisas təhsili müəssisələri deyil. Ümumilikdə hər bir fərddir, ailələrdir, icmalardır, biznes qurumlarıdır, kütləvi informasiya vasitələridir. Bir sözlə, ölkədə təhsilin inkişaf etmiş səviyyədə olmasını istəyən hər kəsdir. Ona görə də bu mühitin formalaşması üçün cəmiyyətdə təhsillə bağlı ictimai müzakirələrin daha da genişlənməsinə ehtiyac var. Əlbəttə ki, lazımi təhsil mühitinin formalaşması cəmiyyətimizin öz gələcəyini daha hazırlıqlı, daha peşəkar qarşılamasına böyük töhfələr verə biləcək.

## Sağlam nəsil, sağlam gələcək

Gənclərimizin təhsili ilə yanaşı, milli ruhda tərbiyəsi, onlarda daim Vətənə sevginin olması çox mühüm məsələdir. Əslində elə milli təhsilimizin ali məqsədi də milli ruhlu kamil vətəndaşlar yetişdirməkdir. Sözdə bu, aydın, konkret iş proqramıdır, amma əməldə, pedaqoji praktikada tədris prosesinin bütün üsul və formalarını əhatə edən həm yaxın, həm də son hədəfdir. Ona görə təhsil müəssisələrində keçirilən hər bir dərsin həm məzmununda, həm formasında, həm də mütəşəkkil xüsusiyyətlərində hər şeydən əvvəl milli ruh, milli mühit öz əksini tapmalıdır.

Milli ruh özünüdərkin, vətənpərvərliyin, qədirbilənliyin, sədaqətin, xeyirxahlığın, humanizmin, iradənin və digər mənəvi keyfiyyətlərin nəticəsi kimi formalaşır. Milli ruh nədir? Bu, ilk növbədə, konkret şəxsiyyətin bütün varlığında yaşatdığı dəyərlərə bağlılığıdır. Həm də bu bağlılıq bir bilik deyil və ancaq bilikdən də doğan amil deyil. Bəlkə ondan da qat-qat yüksək olan mənəvi-emosional bağlılıqdır. Qloballaşma dövründə gənclərimizi yalnız bu bağlılığın gücü ilə ziyanlı təsirlərdən qoruya bilərik. Gənclərimiz milli köklərə nə qədər bağlı olsalar, özlərini bir o qədər güclü, sarsılmaz hiss edəcək, eyni zamanda, Vətən üçün faydalı olmağa cəhd göstərəcəklər.

Prezident İlham Əliyev bu barədə deyir: *"Azərbaycan gənci Azərbaycan dəyərləri, ənənəvi dəyərlər əsasında tərbiyə almalıdır, Vətənə bağlı olmalıdır, Azərbaycan dəyərlərini hər şeydən üstün tutmalıdır, öz tarixini, ədəbiyyatını, ana dilini mükəmməl bilməlidir, fəxr etməlidir ki, Azərbaycan vətəndaşıdır. Ona görə bu məsələyə çox böyük diqqət verilməlidir. Mən gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə olunması ilə əlaqədar gedən prosesləri müsbət qiymətləndirirəm. Mən görürəm ki, yeni, müasir nəsil yetişir. Müstəqillik dövründə doğulmuş və ya formalaşmış nəsil yetişir. Müasir, vətənpərvər və mənəvi cəhətdən sağlam yeni nəsil ölkəmizin gələcəyini müəyyən edəcək. Ölkəmizin müstəqilliyi, firavanlığı onlardan asılı olacaq. Onlar milli maraqları bizim qədər, heç nəyə baxmadan müdafiə etməlidir".*

Dövlət rəhbərimizin təhsilin inkişafı sahəsində gördüyü işlər gələcəyin etibarlı təminatıdır. Çünki təhsil gələcəyin təməlidir. Sabahını düşünərək qarşıya qoyduğu hədəflərə doğru irəliləyən insan nə qədər əzmkar və nikbin təsir bağışlayırsa, gələcəyi üçün bu gündən daha etibarlı, möhkəm təməl formalaşdıran, vətəndaşları üçün layiqli həyat tərzi qurmağa çalışan dövlət də bir o qədər qüdrətli görünür. "Elm və təhsildən bəhrələnməyi bacaran cəmiyyət həmişə firavan yaşayır".

Xalqın, dövlətin sabahı belə bir bünövrə üzərində bərqərar olur.

Təhsilə, elmə marağı ilə bu təməli yeni nailiyyətlərlə möhkəmləndirmək isə hər bir Azərbaycan vətəndaşının mənəvi borcudur.

**Nurlana ƏLİYEVA,**
**Bakı Slavyan Universitetinin rektoru, professor**

## Biz birlikdə güclüyük!

# Ehtiyatlı olaq ki, pandemiya dalğası sahilə vurmasın

### Daha az insanın olduğu çimərliyə üz tutaraq istirahətinizin təhlükəsizliyini təmin edə bilərsiniz



*Əvvəli 1-ci səh.*

Xəbərdarlıq edilmişdi ki, COVID -19 pandemiyası ilə əlaqədar ölkəmizdə tətbiq olunan karantin rejimi dövründə çimərliklərdən istifadə edən şəxslər bir sıra qaydalara əməl etməlidirlər. Xüsusilə çimərliklərə getməmişdən əvvəl cimerlik.az saytına daxil olmaq, çimərliklərdəki sıxlıq səviyyəsini yoxlayaraq daha az insanın olduğu əraziyə üz tutmaq, əraziyə yalnız ASAN könüllüləri tərəfindən nəzarət olunan girişdən daxil olmaq, çıxış üçün nəzərdə tutulan yerdən tərk etmək lazımdır.

Xüsusilə, çimərliklərdəki sıxlıq səviyyəsini yoxlayaraq daha az insanın olduğu əraziyə getmək vacibdir. Amma çimərliyə gedən yollarda avtomobillərin sıxlığı və tıxaclar onu göstərirdi ki, əksər insanlar cimerlik.az saytına baxmadan hərəkət edirlər.

Elə Yaşar adlı sürücü də söylədi ki, həftəsonu ailəsi ilə istirahət etmək üçün Mərdəkandakı çimərliyə gəliblər, amma adıçəkilən sayta baxmağa lüzum görməyiblər: "Düşündüm ki, çox sıxlıq olmaz. Amma görürəm ki, burada adam çoxdur və çimərliyə qoyulan say həddi dolduğu üçün, indi maşında gözləməyə məcburuq".

Həmsöhbət olduğumuz Arif dayı da çimərlikdə yerlərin boş olduğunu zənn edərək bura yollananlardandır: "Cümə günü səhər tezdən bu çimərliyə gəlmişdim, o zaman bura boş idi. Düşündüm ki indi də elə olar, amma..."










## İstirahət sağlamlıq bahasına başa gəlməməlidir

Dənizdə dalğalarla yarışanlar, günəşin şəfəqlərindən parlayan qum üzərində dincələnlər, sözün əsl mənasında Xəzərin səxavətindən bol-bol faydalanırlar.

Sahildə nəvələrinin qumdan nə isə düzəltdiklərinə heyranlıqla tamaşa edən Süreyya nənə deyir ki, çimərliklər fəaliyyətə başlayandan artıq üçüncü dəfədir ki, dənizdə istirahət edirlər: "İki dəfə Buzovnadakı çimərliyə getmişik, amma indi sayta baxdıq ki orada sıxlıq çoxdur, buna görə də Mərdəkana gəldik. Çalışırıq adamların sıx toplaşdığı yerlərdən uzaq olaq, məsafə saxlayaq. Tez-tez əllərimizi yuyur, dezinfeksiya edirik. İstəmirəm ki, istirahətimiz bizə sağlamlığımız bahasına başa gəlsin".

Fəridə xanım isə söyləyir ki, bəzi istirahətə gələn şəxslərin ətrafın təmizliyinə riayət etməməsi, zibilləri tullantı qablarına atmaması onda narahatlıq yaradır: "Hər kəs öz şəxsi gigiyenasına, sağlamlığına, təhlükəsizliyinə diqqət etməlidir. Çimərliklərdə aidiyyəti qurumların əməkdaşları tərəfindən bütün bunlara nəzarət edilir. Mütəmadi olaraq məlumatlandırmalar aparılır. Amma daim hər kəsi nəzarətdə saxlamaq, xəbərdarlıq etməkdə fiziki baxımdan mümkün deyil. Axı nə üçün çimərliyi tərk edərkən orada bizə aid zibilləri tullantı qablarına atmaq lazım olduğunu könüllülər, yaxud digər şəxslər xatırlatmalıdırlar?!"

## Vətəndaşlar çimərliklərə qaydalara və kvotalara uyğun qəbul olunurlar

Bildirək ki, vətəndaşlar çimərliklərə qaydalara və kvotalara uyğun qəbul olunurlar. Əraziyə Bakı Şəhər İcra Hakimiyyətinin əməkdaşları və ASAN könüllüləri nəzarət edir, vətəndaşları mütəmadi məlumatlandırırlar. Həmçinin, çimərliklərdə təmizlik təmin olunur, təhlükəsizlik tədbirləri həyata keçirilir.

Ümumiyyətlə, avqustun 5-dən etibarən karantin rejiminin tələblərinə uyğun müəyyən edilən qaydalar çərçivəsində çimərliklər vətəndaşların ixtiyarına verilib. Bununla əlaqədar Bakı şəhər və rayon icra hakimiyyətlərinin struktur qurumlarının nümayəndələrindən təşkil edilən qruplar tərəfindən paytaxtın rayonlarındakı bütün ictimai və özəl çimərliklərə, istirahət mərkəzlərinə baxışlar keçirilib, çimərliklərə şəhər və rayon icra qurumlarının nümayəndələrindən ibarət məsul şəxslər təhkim edilib.

Karantin şəraiti nəzərə alınaraq çimərliklərdə maarifləndirici lövhələr quraşdırılıb, işçi personal və könüllülər təlimatlandırılıb. Çimərliklərdə işarələnmə, nişanlanma, lentlərlə məhdudlaşmalar aparılıb.

İşçi personal tərəfindən sosial məsafə saxlanılması, dezinfeksiyaedici vasitələrdən istifadə edilməsi, təmizliyə riayət edilməsi ilə bağlı vətəndaşlara səsgücləndiricilər vasitəsilə mütəmadi xəbərdarlıqlar edilir.

Həmçinin ərazilərin dezinfeksiyası və tullantıların daşınması məsələləri həll edilib. Kommunal xidmətlərin işçiləri xüsusi rejimdə çalışaraq tullantıların vaxtında daşınmasını təmin edirlər. Hər bir çimərlikdə tullantıların və tibbi maskaların atılması üçün ayrı-ayrı konteynerlər qoyulub, dezinfeksiyaedici məhlullar olan guşələr yaradılıb.

## Çimərliklərdə sıxlığın səbəbi

Bəli, hazırda çimərliklərə güclü axın müşahidə olunur. Bir çox vətəndaşların portala baxmadan özləri müəyyənləşdirdiyi çimərliklərə üz tutmaları isə sıxlığa və virusun yayılma riskinin artmasına səbəb olur.

Bakı şəhər İcra Hakimiyyətinin şöbə müdiri Coşqun Cəbrayılov məsələ ilə bağlı bildirib ki, mövcud sıxlığa daim nəzarət olunur. Cimerlik.az portalına baxmadan dənizə gəlmək yoluxmanı artıra bilər: "Çimərliklərdə xüsusi arakəsmələrin gözlənilməsi üçün yerlər müəyyən edilib. Səsgücləndirici vasitələrlə maarifləndirmə işləri aparılır. Lakin virusun yayılmaq ehtimalını artıran mənzərənin yaranmaması birbaşa insanların özündən asılıdır".

Koronavirus infeksiyasının yayılmasının qarşısını alan başlıca şərtlərdən biri insan təmasını azaltmaqdır. Bu baxımdan deyə bilərik ki, Bakıda kifayət qədər çimərlik var və digər, daha az adam olan çimərliklərə getmək daha yaxşıdır və təhlükəsizdir.

Eyni zamanda aidiyyəti portalda adı qeyd olunmayan çimərliklərə üz tutduqda pandemiya ilə bağlı monitorinq aparılmadığından xüsusilə ehtiyatlı olmaq lazımdır.

O da reallıqdır ki, çimərliklərdə tələb olunan qaydalara əməl olunmasa, sosial məsafə gözlənilməsə, sıxlıq yaransa COVID-19-un sürətlə alovlanması qaçılmaz ola bilər. Bu zaman isə nəinki istirahət edə, əksinə, yenidən sıx karantin rejiminə dönərik, evdə qalmaq zərurəti yaranar.

Buna görə də hər zaman, hər yerdə məsuliyyətli olaq, qaydalara riayət edək, pandemiyanı unutmayaq ki, ölkəmizdə koronavirusun ikinci dalğası sahildən başlamasın...

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## Azad RƏHİMOV: Pandemiyanın illərlə idmanda qazandığımız uğurları məhv etməsinə icazə verə bilmərik



İcazə vermək olmaz ki, pandemiya illərlə idmanda qazandığımız uğurları məhv etsin.

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu fikirləri avqustun 10-da Gənclər və İdman naziri Azad Rəhimov qeyri-Olimpiya idman növləri üzrə federasiyaların rəsmiləri ilə görüşündə deyib.

Nazir Olimpiya idman növlərində vəziyyətin nisbətən daha sabit olduğunu, idmançıların icazə əsasında məşqlərini qapalı şəraitdə davam etdirə bildiklərini diqqətə çatdıraraq, narahatlığın qeyri-Olimpiya idman növləri ilə bağlı olduğunu bildirib: "İdmançılarımızın məşqlərdən, idman zallarından uzaq düşmələri, artıq bəzilərinin cangüdən olaraq iş elanları yerləşdirməsi, digərlərinin taksi sürücüsü kimi fəaliyyətə başlamaları, maddi və mənəvi cəhətdən çox çətin dövrdə yaşamaları haqda xəbərlər məni çox narahat edir. Düzdür, idman yarışlarının və məşqlərin açıq havada keçirilməsi ilə bağlı Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən qərar qəbul olunub. Əgər zala gedə və avadanlıqdan istifadə edə bilmiriksə, o zaman necə edək? sualını verə bilərsiniz. Məhz bunun üçün sizi nazirliyə dəvət etmişik".

A.Rəhimov federasiyalara məşqlər üçün nazirliyin balansında olan Olimpiya İdman komplekslərinin açıq məkanlarını təklif etməklə yanaşı, şəhərdəki münasib yerlərin də əlaqələndirilmiş şəkildə təyin olunduğunu vurğulayıb. Avadanlığa gəldikdə A.Rəhimov idmançıların müəyyən olunmuş açıq məkanlarda məşqlərə başlayacaqları təqdirdə nazirliyin onları lazımi avadanlıqla təmin edə biləcəyini deyib. Nazir, həmçinin federasiyaların maliyyə çətinliyi ilə də üz-üzə qalması barədə məlumatlı olduğunu bildirərək, bu problemin nazirliyin aidiyyəti nümayəndələri ilə federasiya rəsmilərinin müzakirə edərək həllinə dəstək göstərməyə hazır olduğunu qeyd edib.

Beynəlxalq yarışlarda iştirak məsələsinə də toxunan A.Rəhimov deyib: "Əgər hər hansı ölkədə beynəlxalq yarış keçirilirsə və bu ölkəyə giriş-çıxışla bağlı məhdudiyyət yoxdursa, biz idmançının həmin yarışda iştirakına dəstək ola bilərik. Amma bir şərtlə ki, yarış mötəbər olsun və əsasnaməyə cavab versin".

Nazir federasiya rəhbərlərinə bu çətin pandemiya dövründə idmançılar arasında daim maarifləndirmə işini aparmalarının, dövlət tərəfindən qoyulan qanunlara hər kəsin əməl etməsinin vacibliyini diqqətə çatdırıb.

Daha sonra Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının rektoru Fuad Hacıyev, Milli Paralimpiya Komitəsinin prezidenti İlqar Rəhimov, Azərbaycan Milli Antidopinq Agentliyinin (AMADA) rəhbəri Şəfəq Hüseynli, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov və digər şəxslər çıxış edərək pandemiya dönəmində idmanımızın rastlaşdığı narahatlıqları, nazirlik ilə bu dövrdə həyata keçirilən birgə əməkdaşlığı, idmançıların farmakoloji təminatını, təhsil sahəsində gözləntilərin idarə olunmasını və digər mövzuları diqqətə çatdırıb, fikir mübadiləsi aparıblar.

İclasda 30-dan çox qeyri-Olimpiya idman növləri üzrə federasiyaların nümayəndələri iştirak ediblər.

Konfrans zamanı dünyasını dəyişmiş görkəmli idman xadimi, Azərbaycan Bədən Tərbiyəsi və İdman Akademiyasının güləş və onun metodikası kafedrasının müdiri, Milli İdman Assosiasiyasının prezidenti, Azərbaycan Milli Olimpiya Komitəsinin üzvü Xanlar Qurbanovun xatirəsi yad olunub, onun vəfatının Azərbaycan idmanı üçün ağır itki olduğu bildirilib.

## Əmanətlərin sığortalanması ilə bağlı qərar qəbul olunub

Fərhad Abdullayevin sədrliyi ilə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında növbəti məhkəmə iclası keçirilib.

Konstitusiya Məhkəməsinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Azərbaycan Respublikası Nazirlər Kabinetinin sorğusu əsasında "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikası Qanununun 2.1.2.6-cı maddəsinin "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 47-ci və 48-ci maddələri baxımından şərh edilməsinə dair konstitusiya işinə baxılıb.

Konstitusiya Məhkəməsinin Plenumu iş üzrə hakim K.Şəfiyevin məruzəsini, maraqlı subyektlərin nümayəndələri - Azərbaycan Respublikası Mərkəzi Bankının sədri E.Rüstəmovun, Əmanətlərin Sığortalanması Fondunun icraçı direktoru T.Piriyevin, Azərbaycan Respublikası Milli Məclisi Aparatının İqtisadi və sosial qanunvericilik şöbəsinin müdiri M.Bazıqovun və mütəxəssis - Azərbaycan Banklar Assosiasiyasının prezidenti Z.Nuriyevin yazılı mülahizələrini, işin materiallarını araşdırıb müzakirə edərək qərar qəbul edib.

Qərarda deyilir ki, Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsini nəzərə alaraq, "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikası Qanununun 2.1.2.6-cı maddəsinə, "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 47-ci və 48-ci maddələrinə əsasən təshih tədbirinin tətbiqindən sonra qəbul edilmiş, həcmi artırılmış və şərtləri dəyişdirilmiş əmanətlər qorunan əmanətlər hesab edilir.

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 944.1-ci maddəsinə uyğun olaraq, bank əmanəti müqaviləsi əmanətçinin əmanəti banka verdiyi andan bağlanmış sayılır və ilkin (əsas) müqavilə kimi qəbul olunmalıdır. Əmanət müqavilələrinin miqrasiya olunduğu tarix əmanət müqaviləsinin bağlanma vaxtı hesab edilə bilməz.

Qərar dərc edildiyi gündən qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz.

## Səyyar ASAN tibbi müayinə Tovuzun Ağdam kəndində

"ASAN xidmət" və "Sağlam Ailə" Tibb Mərkəzinin birgə təşkilatçılığı ilə həyata keçirilən ödənişsiz səyyar tibbi müayinə layihəsi bu dəfə Tovuz rayonunun Ağdam kəndində təşkil olunub.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, avqustun 6-8-də kənd sakinləri yaşadıqları ünvanlarda ödənişsiz peşəkar həkim müayinələrindən yararlanıblar. Müayinələr pandemiya şəraitində mövcud preventiv tədbirlərin şərtlərinə və tibbi-profilaktik qaydalara əsasən təşkil olunub.

Həmçinin sakinlərə tibbi maskalar və dezinfeksiya məhlulları təqdim olunub.

Kənd sakinləri, eyni zamanda, onlar üçün təqdim olunmuş tibbi kuponlar vasitəsilə "Sağlam Ailə" klinikalarında istənilən vaxt ödənişsiz müxtəlif həkim və laborator müayinələrdən yararlana bilərlər.

Səyyar tibbi müayinənin əsas məqsədi əhali arasında profilaktik müayinə mədəniyyətini, sağlam həyat tərzini təbliğ etmək, əsasən aztəminatlı və ehtiyacı olan vətəndaşlar üçün ödənişsiz müayinələrin həyata keçirilməsini təşkil etməkdir.

Qeyd edək ki, 2017-ci ildən həyata keçirilən səyyar tibbi müayinə layihəsi Azərbaycanın bir çox regionlarını əhatə edib.

# Bu il 66 peşə təhsili müəssisəsinə qəbul aparılacaq

2020-2021-ci tədris ilində peşə təhsili pilləsinə tələbə qəbulu üçün 18 min 260 yer ayrılıb. Ayrılan yerlərdə 11 min 40 nəfər dövlət büdcəsi hesabına, 7220 nəfər isə ödənişli əsaslarla təhsil alacaq.

AZƏRTAC xəbər verir ki, bu fikirlər 2020-2021-ci tədris ili üzrə peşə təhsil pilləsinə tələbə qəbulunun başlanması ilə bağlı keçirilən mətbuat konfransında səsləndirilib.

Bildirilib ki, avqustun 10-dan etibarən dövlət peşə təhsili müəssisələrinə sənəd qəbuluna start verilib. Sənəd qəbulu avqustun 24-dək elektron qaydada həyata keçiriləcək. Peşə təhsili müəssisələrinə qəbul ixtisas və təhsil müəssisəsinin sərbəst seçimi əsasında müsabiqə yolu ilə aparılacaq. Müsabiqədə iştirak etmək ödənişsizdir. 2020/2021-ci tədris ilində peşə təhsili üzrə qəbul 66 peşə təhsil müəssisəsində 120 ixtisas üzrə aparılacaq. Bu il ilk dəfə olaraq tələbə qəbulu prosesində işəgötürənlərlə birgə ikili proqramlar tətbiq olunacaq. Həmçinin ilk dəfə peşə təhsili müəssisələrində yüksək texniki peşə səviyyəsi üzrə (subbakalavr dərəcəsi) tələbə qəbulu aparılacaq.

Diqqətə çatdırılıb ki, peşə təhsili müəssisələrinə qəbul üzrə müsabiqədə iştirak etmək istəyən şəxslər Təhsil Nazirliyinin "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"nin Elektron sənəd qəbulu altsistemində (http://qebul.vet.edu.az/) elektron ərizəni doldurmalıdır.

Elektron sənəd qəbulundan keçmək üçün şəxsiyyəti təsdiq edən sənəd, təhsil haqqında sənəd (attestat), əlilliyi olan şəxslərin əlilliyini təsdiq edən sənəd, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş şəxslərin valideynlərini itirməsini və valideyn himayəsindən məhrum olmasını təsdiq edən sənəd tələb olunur. Peşə təhsili müəssisələrinə qəbul ərizəçinin attestatında göstərilən müvafiq fənlər üzrə qiymətlərinin orta balı əsasında aparılacaq. Qəbul prosesində hər namizədə maksimum 5 ixtisas üzrə seçim etmək imkanı yaradılacaq.

Müsabiqənin nəticələri avqustun 25-də elan ediləcək və qəbul olunan namizədlərin qeydiyyatdan keçdikləri mobil nömrələrinə SMS gələcək.

Qeyd edilib ki, dövlət peşə təhsili müəssisələrində təhsil dövlət sifarişi əsasında (dövlət büdcəsinin vəsaiti hesabına) və ya ödənişli əsaslarla həyata keçirilir. Dövlət təhsilalanların peşə təhsili səviyyələri üzrə peşə təhsili müəssisələrində dövlət hesabına yalnız bir dəfə təhsil almaq hüququnu təmin edir. Valideynini itirmiş və ya valideyn himayəsindən məhrum uşaqlar, şəhid ailəsinin üzvləri, I, II və III dərəcə əlilliyi olanlar və 20 yaşına çatmamış və I dərəcə əlilliyi müəyyən edilmiş valideyni olan, aylıq gəliri yaşayış minimumundan aşağı olan şəxslər dövlət peşə təhsili müəssisələrində ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil haqları dövlət büdcəsi hesabına ödəniləcək.

Eyni zamanda ünvanlı dövlət sosial yardımı alanların, hər iki valideyni (tək valideyni olduqda həmin şəxs) və ya qanuni nümayəndələri I və II dərəcə əlilliyi olan şəxslər, işsiz kimi qeydiyyatda olan tələbələr, yaşa görə əmək pensiyaçıları və yaşa görə sosial müavinət alanların təhsil haqqının yarısı dövlət büdcəsinin vəsaiti hesabına olacaq. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər isə dövlət peşə təhsili müəssisələrində yalnız ödənişli əsaslarla təhsil ala biləcəklər.

Məlumat verilib ki, nəticələr elan olunduqdan və qəbul edilənlər qeydiyyatdan keçdikdən sonra vakant yerlər qalarsa, peşə təhsili müəssisələrinə sentyabrda əlavə qəbul keçiriləcək.

## Azərbaycanın məşğulluq xəritəsi hazırlanır

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən ölkənin məşğulluq xəritəsi hazırlanır.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, xəritə elektron informasiya sistemlərindən toplanmış məlumatlar nəticəsində yaradılır.

Məlumat bazasında ölkənin bütün inzibati ərazi bölgüsü üzrə əsas məşğulluq göstəriciləri, əmək resursları, məşğul əhali, muzdla işləyənlər, fərdi sahibkarlar, torpaq pay mülkiyyətçiləri, onların sektoral bölgüsü, işsiz şəxslər, ərazi məşğulluq proqramlarının icra vəziyyəti və s. aid informasiyalar toplanacaq.

Hər rayon və şəhər üzrə hazırlanacaq xəritə elektron formada ictimaiyyətə təqdim ediləcək. Ölkənin məşğulluq xəritəsi sosial və iqtisadi sahədə atılacaq addımların dinamikasını göstərəcək və məşğulluq proqramlarının hazırlanması və icrası işinin daha da təkmilləşdirilməsinə imkan verəcək.

# REGİONLAR

## Dövlət başçısının səfərləri regionların simasını başdan-başa dəyişib



Əvvəli 1-ci səh.

Yaxın keçmişdə Gəncəyə gələn qonaqlar şəhərin hansı vəziyyətdə olduğunu yaxşı xatırlayırlar. Xüsusilə şəhərin Bakı istiqamətindən olan girişinin necə baxımsız olduğu hamının yadındadır. Boz düzəngah, daşlı-kəsəkli torpaq, adda-budda ağaclar ürək ağrıdırdı. Dahi Azərbaycan şairi Nizami Gəncəvinin məqbərəsi yerləşən ərazi baxımsız vəziyyətdə idi. İndi həmin istiqamətdə şəhərə yaxınlaşanda uzaqdan çox müasir və qədim bir şəhər gözlərin önündə canlanır. 75 metr yüksəklikdə dalğalanan Azərbaycan bayrağını, Qoşa Qala Qapıları-Arxeologiya və Etnoqrafiya Abidə-Kompleksini, geniş ərazini əhatə edən yaşıllığı, yaraşıqlı fəvvarəni seyr etdikcə adamın ürəyi dağa dönür. Qalanın daxilində yerləşən dördmərtəbəli muzeydə isə tarixin istənilən dövrünə səyahət etmək mümkündür. Hərb tarixi, etnoqrafiya, süfrə mədəniyyəti, qədim sənət nümunələri Gəncənin böyük mədəniyyətə malik olduğunu diqqətə çatdırır. Muzeydə qədim yurdun dünyaya səs salan sənətkar övladları haqqında ətraflı məlumat almaq üçün təkcə “Sələflər və xələflər” qalereyasına baxmaq kifayətdir.

İnsanda xoş ovqat yaradan bu ərazini keçib şəhərə üz tutanda yol boyu yamyaşıl ağacların və qədimliyi özündə əks etdirən istinad divarlarının əzəmətini artıran 5 kitabə dəyərli məlumat kimi insanda xoş təəssürat yaradır. Dahi Nizami Gəncəvinin “Xəmsə”sinin poemalarına həsr olunmuş bu kitabələr gələn qonaqlarda dünya şöhrətli şair haqqında geniş təsəvvür yaradır. Şairin məqbərəsi isə bu təəssüratı tamamlayır.

Heydər Əliyev Fondu və onun prezidenti, ölkənin birinci xanımı Mehriban Əliyevanın qayğısı və yaxından köməyi ilə Gəncədə bir çox tarixi abidələr, o cümlədən Comərd Qəssab, Cavad xan tarixi memarlıq abidələri, muzeylər, təhsil və səhiyyə ocaqları əsaslı şəkildə yenidən qurulub.

Şəhərin gözəlliyinə yeni gözəllik qatan, Prezident İlham Əliyevin bünövrəsini qoyduğu və iki il sonra açılışını etdiyi Heydər Əliyev Park-Kompleksi bu gün Gəncənin əsas istirahət məkanına çevrilmişdir. Parkın yenidən qurulması üçün təsdiq edilmiş layihənin təqdimatı keçiriləndə çoxları buna inanmaq istəmədi. Lakin Ulu Öndərə olan böyük ehtiram və məhəbbət insanlara elə bil güc-qüvvət verdi. İki il sonra parkın açılışında iştirak edən dövlət başçısı buranı möcüzə adlandırdı. Parkda ucaldılan Heydər Əliyev Mərkəzi, Zəfər Tağı, “Amfiteatr”, uşaqların və böyüklərin ürəyincə olan qeyri-adi attraksionlar və sair indi həm sakinlərin, həm də qonaqların ziyarət ünvanına çevrilmişdir.





Gəncədə insanların rahatlığı üçün yaradılan istirahət məkanları bununla bitmir. İllər boyu baxımsız vəziyyətdə olan, hətta məişət tullantılarının məkanına çevrilmiş Gəncəçayın sahili indi gözəlliyə bürünmüş seyrangahdır. Burada Məhsəti Gəncəvi və Uşaq Yaradıcılıq mərkəzləri inşa edilməklə ərazinin gözəlliyi bir qədər də artırılmışdır. Çayın sağ sahilində yaradılmış və insanların sevimli istirahət yerlərindən birinə çevrilən Park-Bulvar Kompleksində müair oturacaqlar quraşdırılmış, müxtəlif ağac və gül kolları əkilmişdir. Həyata keçirilən bu işlər ölkə rəhbərinin qədim Nizami yurduna etdiyi tarixi səfərlərin uğurlu nəticələridir. Dövlət başçısının hər səfərindən sonra bir-birinin ardınca həyata keçirilən layihələr Gəncənin inkişafını daha da sürətləndirmişdir.

Son illərdə 460 hektarlıq ərazidə salınan park, zəngin eksponatlı 5 muzey istifadəyə verilmiş, bir milyon ağac əkilmişdir. Mədəniyyət və istirahət parklarının da sayı artmış, 5 qəsəbə-Sadıllı, Məhsəti, Natəvan, Şeyxzamanlı və Cavad xan qəsəbələri tamamilə yenidən qurulmuşdur. Məktəblərin və uşaq tərbiyə müəssisələrinin hamısı yenilənmiş, səhiyyə ocaqlarının sayı artırılmış, əvvəldən olanlar isə əsaslı şəkildə təmir edilmişdir. Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasının tikilərək istifadəyə verilməsi şəhər mərkəzinin arxitekturasına daha bir gözəllik bəxş etmişdir. Hazırda Gəncə Dövlət Dram Teatrı üçün inşa edilən yeni binada son tamamlama işləri görülür. İnamla demək olar ki, genişmiqyaslı quruculuq işləri aparılarkən Gəncənin qədim şəhərsalma ənənəsi qorunur.

Hazırda qədim Gəncə inkişafının yeni mərhələsini yaşayır. Şəhər öz tarixi simasını saxlamaqla sürətlə inkişaf edir. Çoxmərtəbəli yaşayış binalarının dam örtükləri yenilənir, fasad hissələri şəhərə xas olan memarlıq ənənələri əsasında üzlənir. Yaradılan nümunəvi məhəllələr, geniş prospektlər, rahat yollar, göz oxşayan parklar bu gün Gəncəni baxımlı edən əsas elementlərdir.

Göründüyü kimi, Gəncə son illər həyata keçirilən genişmiqyaslı layihələrin həyata keçirilməsi nəticəsində qazandığı ecazkar gözəlliyi ilə adamları heyran qoyur. Gəncəyə gələn qonaqlar da öz heyranlıqlarını bildirir, bu qədim şəhərə dönə-dönə gəlməyi arzulayırlar. Şəhər sakinləri gözləri önündə gündən-günə gözəlləşən, müasirləşən və çiçəklənən Gəncədə yaşadıqları üçün fəxr edirlər.

Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın bu il iyun ayının 24-də Gəncəyə etdikləri tarixi səfər də şəhər sakinlərinə unudulmaz anlar yaşatdı. Digər səfərlər kimi bu dəfə də şəhərdə bir sıra obyektlərin açılışında iştirak edən Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva şəhər sakinləri ilə yaddaqalan görüşlər keçirdilər. Səfər çərçivəsində “Şah Abbas” və “Uğurlu Xan” karvansara kompleksi bərpadan sonra istifadəyə verildi. Həmin gün Gəncədə tikinti materialları istehsalı zavodunun, Azərbaycan Dövlət Aqrar Universitetinin yeni tədris korpusunun, 1 saylı şəhər xəstəxanasının modul tipli infeksion xəstəliklər korpusunun açılışı həyata keçirildi. Mənzil İnşaat Dövlət Agentliyi tərəfindən inşa edilən yaşayış kompleksinin tikintisi ilə tanışlıq da yaddaqalan oldu.

Dövlət başçısı İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Gəncəyə diqqət və qayğısı bu gün də davam edir. Gəncəlilər bunu onların qədim Nizami yurduna növbəti səfərlərində bir daha hiss etdilər. Hazırda bütün dünyada COVID-19 pandemiyasının yayılmasına baxmayaraq, Gəncədə abadlıq və quruculuq işləri davam etdirilir. Dövlət başçısının sakinlərlə keçirdiyi görüşdə qarşıya qoyduğu tələb və tövsiyələri həyata keçirməyi özlərinin bir nömrəli vəzifələri hesab edən gəncəlilər bütün bu işlərə görə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya minnətdardırlar.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***

## Bir daha içməli su haqqında

### Prezident İlham ƏLİYEV: “Su həyat deməkdir. İlk növbədə insanların sağlamlığı böyük dərəcədə təmiz içməli sudan asılıdır”

Əvvəli 1-ci səh.

Bu il iyulun 23-də Prezident İlham Əliyevin yanında su təsərrüfatının vəziyyətinə həsr olunmuş videoformatda keçirilən müşavirədə həmin məsələ daha geniş müzakirə olundu. Tədbirdə əhalinin təmiz içməli su ilə fasiləsiz təminatı mövzusu da özünə geniş yer aldı.

I Dövlət Proqramının icrasına başlananda ölkədə içməli su ilə təminat 40 faiz səviyyəsində idi. Həmin vaxtdan bəri görülən ardıcıl tədbirlər nəticəsində indi bu rəqəm 70 faizə çatıb. O vaxt Bakı şəhərində içməli suyu davamlı şəkildə sakinlərin 29 faizi alırdısa, bu gün paytaxt əhalisinin təxminən 82 faizi içməli su ilə fasiləsiz təmin olunur. Regionlarda isə əhalinin içməli su ilə əhatə dairəsi cəmi 9 faiz təşkil edirdi. Hazırda bu rəqəm 63 faizdir.

Vəziyyəti müsbət tərəfə dəyişən təbii ki, son illərdə Azərbaycanda həyata keçirilən nəhəng su layihələridir. Prezident İlham Əliyev onların arasında Oğuz-Qəbələ-Bakı su kəmərini xüsusilə qeyd etmişdir: “Bu kəmərin çox böyük əhəmiyyəti var. İlk növbədə böyük həcmdə təmiz içməli su Bakı şəhərinə çatdırılır. Nəzərə alsaq ki, bizim su resurslarımızın böyük hissəsi xarici ölkələrdə formalaşır, Oğuz-Qəbələ-Bakı su kəməri sırf yerli mənbə üzərində inşa edilmiş böyük layihədir. Bu layihənin inşası demək olar ki, bizim ilk neft gəlirlərimiz əldə olunandan sonra başlamışdır. O vaxt mən demişdim ki, biz qara qızılı insan kapitalına çevirməliyik və Oğuz-Qəbələ-Bakı su kəməri bunun əyani sübutudur. Çünki bizim neft gəlirlərimiz 2006-cı ildən sonra ölkəyə gəlməyə başlamışdır. O vaxt Bakı-Tbilisi-Ceyhan neft kəməri istismara verildi. O zaman bizim gəlirlərimiz, əlbəttə ki, çox aşağı səviyyədə idi. Ancaq, ilk növbədə, biz bu gəlirləri məcburi köçkünlərin problemlərinin və su məsələlərinin həllinə yönəltdik”.

Mütəxəssislərin fikrincə, əgər Oğuz-Qəbələ-Bakı su kəməri olmasaydı, bu gün Bakı şəhərinin su ilə təminatında problemlər yaşana bilərdi.

270 milyon kubmetr tutumu olan Taxtakörpü su anbarının da bu layihələr sırasında özünəməxsus yeri var. Buradan Ceyranbatan su anbarına qədər yeni beton kanalı tikilib. Taxtakörpü su anbarının əhəmiyyəti həm də ondadır ki, Samur çayının suları orada yığılır, təbii yollarla təmizlənir və yeni bir hövzədən Ceyranbatan anbarına su gəlir. Əvvələr isə su Samur çayından birbaşa kanal vasitəsilə Ceyranbatana axırdı. Ortadakı bu rezervuarın da Bakının su təminatında problemlərin olmamasında böyük rolu var.

Regionlarda digər su anbarları da inşa edilib, subartezian quyuları qazılıb. Əksər şəhərlərdə içməli su və kanalizasiya layihələri icra olunub. Cəmi bir neçə şəhər qalıb ki, orada bu işlər hələ tamamlanmayıb, lakin davam etdirilir.

Bu və digər layihələrin uğurla həyata keçirilməsinə baxmayaraq, görüləsi işlər də hələ çoxdur. Məqsəd ölkə əhalisini 100 faiz keyfiyyətli içməli su ilə təmin etməkdir. Prezident bunu bir daha vurğulamışdır: “İçməli su layihələrinə gəldikdə, bu layihələrin xüsusi əhəmiyyəti var. Mənim təşəbbüsümlə bu layihələr ardıcıl olaraq icra edilir... Çünki su həyat deməkdir. İlk növbədə insanların sağlamlığı böyük dərəcədə təmiz içməli sudan asılıdır”.

İçməli su təminatı ilə bağlı bəzi çatışmazlıqlar yuxarıda qeyd edilən obyektiv səbəblərdən əlavə, təchizat prosesində buraxılan bir sıra səhvlərdən və nöqsanlardan da asılı olur. Belə ki, su itkilərinin qarşısı qəti surətdə alınmalıdır. Bunun üçün infrastruktur layihələrinin tamamlanması vacib şərtdir. Təbiidir ki, istər Bakının rayonlarında, istərsə də digər bölgələrdə əhalinin artması, yeni yaşayış evlərinin tikilməsi, ailələrin çoxalması nəticəsində daha çox içməli su tələb olunur. Su təchizatında bütün bunlar əvvəlcədən nəzərdə tutulmalıdır.

O da sirr deyil ki, böyük ərazilərdə magistral xətlər şəbəkə kimi istismar olunur. Xüsusilə bağ massivlərində çoxsaylı qanunsuz birləşmələr edilir. Magistral xətlər üzərində sakinlər tərəfindən xüsusi nasosxanalar quraşdırılır. Bu, illərdir “ənənə”yə çevrilmiş bir məsələdir. Nəticədə müəyyən ərazilərdə suyun verilişində çətinliklər yaranır, suyun təzyiqi düşür, bəzi hallarda fasiləli rejimə keçmək məcburiyyəti yaranır. Odur ki, sudan qanunsuz istifadələrə qarşı ciddi şəkildə mübarizə aparılması bir daha günün tələbinə çevrilir.

Prezident İlham Əliyev sözügedən müşavirədən sonra, yəni iyulun 27-də “Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında” sərəncam imzalayıb. Bu sərəncamla, həmçinin “Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020-2022-ci illər üçün tədbirlər planı” təsdiq edilib. Sənəddəki bölmələrdən birində içməli su təchizatı sisteminin təkmilləşdirilməsi tədbirləri əhatə olunub. Məsələn, bu istiqamətdə görüləcək işlərə II Bakı su kəmərinin, Oğuz-Qəbələ-Bakı su kəmərinin məhsuldarlığının artırılması, III Şollar su kəmərinin mənbəyinin yaradılması ilə bağlı texniki-iqtisadi əsaslandırmanın hazırlanması və layihələndirmənin həyata keçirilməsi aid edilib. Buraya eləcə də Kür-Araz ovalığında yerləşən və içməli su tələbatı Kür çayından təmin edilən yaşayış məntəqələrinin su təchizatının alternativ mənbələr hesabına təmin edilməsi ilə bağlı təkliflərin Nazirlər Kabinetinə təqdim olunması daxildir. Plana görə, əhalinin içməli su ilə təmin olunması məqsədilə regionlarda quraşdırılmış modul tipli sutəmizləyici qurğuların fəaliyyətinin yaxşılaşdırılması üçün tədbirlər planı hazırlanmalı və icrası təmin edilməli, həmçinin digər çoxsaylı işlər görülməlidir. Məqsəd isə birdir - ölkə əhalisi 100 faiz keyfiyyətli və dayanıqlı içməli su ilə təmin olunmalıdır.

***Flora SADIQLI,***
***“Azərbaycan”***



## Sumqayıtda yenidənqurma işləri aparılır

Respublikamızda həyata keçirilən islahatlarda Sumqayıtın yeri ön sıradadır. Ötən il 70 yaşını qeyd edən şəhər bu gün Cənubi Qafqazın ikinci böyük şəhəri olduğunu qoruyub saxlayıb. Ölkəmizdə atılan hər addımın ilkin təzahürü Sumqayıtda ehtiva edir və şəhər sakinləri qazanılan yenilikləri müdafiə edir.

Sumqayıt müxtəlif sosial layihələrin həyata keçirildiyi bir şəhərdir. Burada məhəllə və mikrorayonlarda xüsusi proqram əsasında bərpa-yenidənqurma işləri aparılır. Səliqə-sahman yaradılır, məhəllələrarası yollar asfaltlanır, işıqlandırma sistemi yenilənir. Uşaqların təhlükəsiz şəraitdə oynamaqları üçün yelləncəklər qurulur, mini stadionlar yaradılır. İşlər təkcə bununla bitmir. Həmin məhəllələrdəki binaların fasadı dəyişdirilir, üstü müasir qaydada örtüklənir. Lift sistemləri yenilənir. Binaların keçid qapıları təmir edilir.





Əsas işlərdən biri də yaşıllaşdırılmanın aparılmasıdır. Demək olar ki, şəhərin bütün ərazisində bu sahəyə diqqət böyükdür. Son bir neçə ildə şəhərdə yaşıllaşdırma bir neçə dəfə artıb.

Görülən işlər təkcə əlaqədar təşkilatlar tərəfindən aparılmır. 2-ci mikrorayonda yaradılan hər nə varsa, hamısı yerli sakinlər tərəfindən mühafizə edilir. Sakinlər bizimlə görüşdə bildirdilər ki, əvvəllər həyətimiz çılpaq idi, bir neçə yerdə yaşı şəhərin yaşıdı olan ağaclar vaxtlarını başa vurmuşdular. Bu gün həyətdə yüzlərlə küknar və qovaq ağacları əkilmişdir. Əjdər Hüseynov vurğuladı ki, pandemiya dövründə işçilərin bir hissəsi növbəli şəkildə işlədiklərindən bəzən onlar da çətinliklə üzləşirdilər. Həyət sakinləri yığışıb qərara gəldik ki, bizim də bu işlərə töhfəmiz olsun. Həyətdəki oturacaqların çoxu yararsız hala düşmüşdü. Yığışıb həmin oturacaqları təmir etdik. Ağacları vaxtaşırı sakinlər özləri sulayır, diblərini belləyirlər. Bu da bir könüllülük hərəkatıdır və sakinlər onun fəal üzvləridir.

Sakinlərdən Rasim Hüseynov, Ramiz İbrahimov bildirdilər ki, evdə qaldığımız müddətdə qənaətlə sudan istifadə edir, ağacların qurumasının qarşısını alırıq. Hamımız birlikdə çalışanda iş də rəvan gedir, görülən də xeyrə aid edilir. Çünki bu, bizim həyətimizdir və onu mühafizə etmək vətəndaş borcumuzdur.

Şəhərin 8, 3, 10, 12-ci mikrorayonlarında da eyni halın şahidi oluruq. 8-ci mikrorayonda sakinlər Baxış Hacıəhmədov, Rəhimə Quliyeva, Tanya Əhmədova və digərləri isti havada ağaclara su verirdilər, Mehparə Xanlarqızı bildirdi ki, ötən il həyətdə bir neçə ağac qurumuşdu. Onları kəsdikdən sonra yeni fidanlar yetişdi. Həyətimizin onlarla sakini həmin ağacəkmə aksiyasında könüllü şəkildə iştirak edib. Həmin ağacların mühafizə və becərilməsində hamımız maraqlıyıq. Gələcəkdə onların kölgəsində dincələn də elə özümüz olacağıq.

Sumqayıt birlik şəhəridir. Əhali qarşılaşdığı yaxşı nə varsa, onu birgə qorumağa, daha da genişləndirməyə çalışır.

***Akif ƏLİYEV,***
***“Azərbaycan”***

## Xaçmazda 15 kəndin sakinlərinin istifadə etdiyi körpü yerli sahibkarların dəstəyi ilə yenidən tikilib

Xaçmaz rayonunun Dədəli kəndində Qusarçay çayı üzərində inşa olunan avtomobil körpüsü sakinlərin istifadəsinə verilib.

Dədəli və Uzunoba kəndləri arasındakı tikilən körpünün eni 4, uzunluğu isə 9 metrdir. Körpünün 16 tona qədər yük götürmə qabiliyyəti var.

2009-cu ildə çaya gələn sel nəticəsində dağılan körpünün yenilənməsinə cari ilin aprel ayında başlanılıb və 3 ay ərzində başa çatdırılıb. Yeni körpüdən ümumilikdə ətraf 15 kənddə yaşayan 7 mindən çox sakin faydalanır.



Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısının Uzunoba İnzibati Ərazi Dairəsi üzrə nümayəndəsi Ələkbər Quliyev bildirib ki, körpü yerli sahibkarların dəstəyi ilə inşa edilib. Körpü tikilməmişdən əvvəl sakinlər rayon mərkəzinə getmək üçün əlavə olaraq 20 kilometrə yaxın məsafə qət etməli olurdular. Yeni körpüdə vətəndaşların rahat və təhlükəsiz hərəkəti üçün şərait qurulub.

Dövlət başçısına minnətdarlıq

# Elm xadimlərinə qayğı

Möhtərəm cənab Prezident!

Koronavirus pandemiyasının (COVID-19) bütün dünyanı cənginə aldığı və ölkəmiz üçün həssas və çətin olan bir dövrdə işlərinizin həddindən artıq çox olduğuna baxmayaraq, böyük lütfkarlıq edib ( bunu yalnız Sizin kimi böyük ürəyə, xalqına və ziyalısına hörmət etməyi bacaran insanlar edə bilərlər) sadə əməyimi bir daha yüksək qiymətləndirərək məni "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif etdiyinizə görə Sizə səmimi-qəlbdən təşəkkür edir, sonsuz minnətdarlığımı bildirirəm. Sizi əmin edirəm ki, həmişə olduğu kimi, bundan sonrakı qalan ömrümü də Azərbaycan elminin inkişafı və yüksək ixtisaslı, mənəvi cəhətdən saf niyyətli elmi kadrların hazırlanması ilə yanaşı Ulu Öndər Heydər Əliyev irsinin və Sizin doğma vətənimiz Azərbaycanın inkişafı və dünya miqyasında özünə şərəfli yer tutması sahəsində apardığınız yeganə doğru siyasətin, gördüyünüz böyük və əvəzsiz işlərinizin tədqiqi və təbliğinə həsr edəcəyəm.

Cənab Prezident, onu da deyim ki, Siz mənim elm sahəsindəki fəaliyyətimi hər zaman yüksək dəyərləndirmisiniz. Siz məni 2004-cü ildə "Şöhrət" ordeni, 2015-ci ildə isə "Əməkdar elm xadimi" fəxri adı ilə təltif etmisiniz.

Fəxr edirəm ki, indiyə qədər az-çox nəyə nail olmuşamsa, onların hamısını dahi şəxsiyyət Ulu Öndər Heydər Əliyevin və Azərbaycan xalqının yenilməz oğlu - Sizin Azərbaycana rəhbərlik etdiyiniz illərdə əldə etmişəm. Ulu Öndər həmişə elmə və elm adamlarına böyük hörmət və həssaslıqla yanaşırdı. O deyirdi: "Şəxsən mən elm xadimlərinə həmişə böyük hörmətlə yanaşmışam... Ona görə ki, elm adamları müstəsna adamlardırlar. Onlar insanlara əməksevərliklə, fədakarcasına və bütün digər keyfiyyətlərlə yanaşı, cəmiyyətdə bu və ya digər yeri tutmağa imkan verirlər. Elm adamları istedada, məharətə, xüsusi bacarığa malik olmalıdırlar... Bu insanlar ən yüksək hörmətə layiqdirlər".

Dahi şəxsiyyət həmçinin deyirdi: "Elə etmək lazımdır ki, elmə yalnız onu həqiqətən zənginləşdirməyə, irəlilətməyə qabil olan adamlar gəlsinlər".

Elə bunun nəticəsi idi ki, Ulu Öndər Azərbaycana rəhbərlik etdiyi birinci dövrdə (1969-1982-ci illərdə) Azərbaycan Elmlər Akademiyası keçmiş SSRİ-nin ən qabaqcıl elm mərkəzlərindən birinə çevrilmişdir. Ancaq unudulmaz şəxsiyyət 1982-ci ildə Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti Sədrinin 1-ci müavini kimi yüksək vəzifəyə irəli çəkilərək Moskvada işləməyə aparıldıqdan sonra, əvvəlcə, ölkəyə səriştəsiz adamların rəhbərlik etməsi, sonra isə xalq cəbhəsinin "rəhbərliyə" gəlməsi dövründə bu elm ocağı çökməyə başladı.

Ulu Öndərin xalqın təkidli tələbi ilə yenidən Azərbaycana rəhbərliyə qayıtdığı 1993-cü ilin ərəfəsində Azərbaycan Elmlər Akademiyası bağlanmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Dahi lider yenidən ölkəmizin rəhbəri vəzifəsinə qayıtdıqdan sonra Azərbaycan xalqı bütün fəlakətlərdən qurtuluş tapdığı kimi Azərbaycan Elmlər Akademiyası da bağlanmaq, dağılmaq təhlükəsindən xilas oldu. O, Azərbaycan Elmlər Akademiyasını Azərbaycanın milli sərvəti və XX əsrdə Azərbaycan xalqının ən böyük nailiyyətlərindən biri kimi qiymətləndirdi: "Azərbaycan Elmlər Akademiyası respublikamızın ən yüksək elm müəssisəsidir... Biz bu akademiyanın hörmətini həmişə qoruyub saxlamalıyıq. Heç vaxt imkan vermək olmaz ki, akademiyamız, yüksək səviyyəli elmi-tədqiqat institutlarımız yaranan cürbəcür özəl elmi müəssisələr tərəfindən ərisin, itsin. Buna yol vermək olmaz".

Möhtərəm Prezident!

Siz də atanız Ulu Öndərin bütün sahələrdə olduğu kimi elm sahəsində də yeritdiyi yeganə düzgün siyasətə sadiq qalaraq onu uğurla davam etdirir, elmimizin inkişafına və elm adamlarına böyük qayğı göstərir, onlara diqqət və hörmətinizi əsirgəmirsiniz. Buna görə də, biz elm xadimləri olaraq bütün başqa sahələrdə olduğu kimi, elm sahəsində də apardığınız siyasətinizi ürəkdən bəyənir, dəstəkləyir və həmişə Sizin yanınızda olduğumuzu bəyan edirik. Ulu Öndər hər iki dəfə Azərbaycana rəhbərlik etdiyi dövrdə ən düzgün siyasət apararaq, xalqımızın maraqlarını müdafiə və təmin etdi, Azərbaycanı tənəzzüldən, böhrandan çıxarıb inkişaf yoluna qoydu. Beləliklə də, müstəqil Azərbaycan dövlətini yaratdı, onun memarı oldu.

Siz isə, möhtərəm cənab Prezident, müstəqil Azərbaycanı yenidən qurub inkişaf etdirirsiniz, onu dünyanın lider dövlətləri sırasına çıxartmağı, tərəqqi və sabitlik ölkəsinə çevirməyi bacardınız. Özünüzün də haqlı olaraq dediyiniz kimi, Azərbaycan indiyədək heç vaxt belə güclü olmamışdır!

Hörmətli cənab Prezident!

Siz bu uğurlara Ulu Öndərin inkişaf strategiyasını əsas götürərək, ona elmi yaradıcılıqla yanaşaraq öz qabiliyyət, bacarıq və fitri rəhbərlik etmək istedadınızla nail olmusunuz və bütün bu illərdə xalqımız həmişə Sizin yanınızda olmuşdur. Ağlı başında olan hər bir vətəndaşımız Sizin bu uğurlarınızı, apardığınız müstəqil və yeganə doğru siyasəti bəyənir və Sizi dəstəkləyir. Bütün bunlara görə çox sağ olun, cənab Prezident!

Hörmətli Prezident!

İzn verin öncə ömrümə-ömür qatdığınız 80 yaşımın tamam olduğu gün-10 avqust 2020-ci il tarixində Sizi bağrıma basıb səmimi-qəlbdən salamlayım, Sizə Ulu tanrıdan dünyanın ən şirin neməti olan möhkəm cansağlığı, uzun ömür və ailə səadəti arzulayım! Ulu Tanrıdan arzum budur ki, Siz hələ uzun illər bundan sonra da indiki kimi qüdrətli, yenilməz, dünya liderləri arasında sayılıb-seçilən olaraq qalasanız və xalqımızın başının üstündən əskik olmayasınız.

Mən fəxr edirəm ki, Sizin kimi vətəninə, xalqına, ziyalısına qəlbən bağlı olan, sözü ilə əməli bir olan mərd, cəsur, iradəli, yüksək intellektual səviyyəsi olan liderimiz var. Qoy, Ulu Tanrımız Sizi qorusun, cənab Prezident!

Amin!

Dərin hörmət və ehtiramla,

***Şahbaz MURADOV,***
***AMEA-nın müxbir üzvü,***
***əməkdar elm xadimi,***
***iqtisad elmləri doktoru, professor***

# General-leytenant Fuad Məmmədov vəfat edib



Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə iştirak edən F.Məmmədov 1992-ci ildən Silahlı Qüvvələrin Hərbi Hava Qüvvələrində qrup rəhbəri, eskadrilya komandirinin müavini, baş mühəndis, Hərbi Hava Qüvvələri Komandanının maddi-texniki təminat üzrə müavini vəzifələrində xidmət edib.

Azərbaycan Ordusuna ağır itki üz verib.

AZƏRTAC xəbər verir ki, Müdafiə Nazirliyinin yaydığı məlumatda general-leytenant Məmmədov Fuad Nadir oğlunun avqustun 10-da ürək çatışmazlığından vəfat etdiyi bildirilib.

F.Məmmədov 1968-ci il yanvarın 31-də Bakıda anadan olub. 1985-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyi bitirib. 1990-cı ildə Riqa Ali Hərbi Aviasiya Mühəndislər məktəbini bitirib və həmin ildən 1992-ci ilədək Zaqafqaziya Hərbi Dairəsində xidmətini davam etdirib.

O, 2015-ci il avqustun 20-dən 2020-ci il iyulun 8-dək Müdafiə nazirinin maddi-texniki təminat üzrə müavini - Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi vəzifəsində xidmət edib.

Xidmətini layiqincə yerinə yetirdiyinə görə dəfələrlə müxtəlif mükafatlara və medallara layiq görülüb. Azərbaycan Respublikasının Silahlı Qüvvələri və müharibə veteranı idi.

General-leytenant Məmmədov Fuad Nadir oğlunun əziz xatirəsi Azərbaycan Ordusunun şəxsi heyətinin və onu tanıyanların qəlbində həmişə yaşayacaq.

Fuad Məmmədovun vəfatı ilə əlaqədar Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov, Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov və nazirliyin digər rəsmiləri başsağlığı veriblər.

# Lukaşenko təbrikləri qəbul edir

## Belarusda prezident seçkiləri hakimiyyət dəyişikliyi ilə nəticələnmədi

Belarusda srağagün keçirilmiş növbəti prezident seçkiləri, bir sıra müşahidəçilərin proqnozlarının əksinə olaraq, yeni dövlət başçısının adının elan olunması ilə yadda qalmadı. 1994-cü ildən bəri ölkəyə rəhbərlik edən Aleksandr Lukaşenko bir daha rəqiblərindən üstün olduğunu nümayiş etdirdi və Prezident kürsüsünü qoruyub saxladı.



Mərkəzi Seçki Komissiyasının (MSK) dünən açıqladığı ilkin rəsmi məlumata görə, Lukaşenko seçici səslərinin 80,08 faizini toplayaraq inamlı qələbə qazanmışdır. Hazırkı dövlət başçısının əsas rəqibi - həbsdə olan bloger Sergey Tixanovskinin (o, həbsdən qabaq prezidentliyə namizədliyini irəli sürmək fikrində idi) həyat yoldaşı Svetlana Tixanovskaya seçicilərin vur-tut 10,09 faizinin dəstəyinə nail olmuşdur. Prezidentliyə digər üç namizədin hər biri 2 faizdən az səs toplamışdır. Seçicilərin 4,6 faizi bütün namizədlərin əleyhinə səs vermişdir. Seçkilərdə fəallıq yüksək olmuşdur: səs vermək hüququ olan vətəndaşların 84,23 faizi bu hüquqdan istifadə etmişdir.

Prezident seçkilərinin nəticələri, gözlənildiyi kimi, müxalifət düşərgəsində narazılıqla qarşılandı. Səsvermə başa çatdıqdan sonra ölkənin şəhərlərində etiraz nümayişləri keçirilmişdir. Ən kütləvi aksiya paytaxt Minskdə qeydə alınmışdır: məlumata görə, burada etirazçıların sayı beş min nəfərə çatmışdır. Digər şəhərlərdə küçələrə bir neçə yüz nümayişçi çıxmışdı. Hüquq-mühafizə orqanları nümayişçiləri dağıdıb asayişi bərpa etmək üçün hərəkətə keçmiş, xüsusi vasitələrə, o cümlədən rezin güllələrə, təzyiqli suya və səs qumbaralarına əl atmışdır. 3 minə yaxın etirazçı saxlanılmışdır. KİV-in verdiyi xəbərə görə, ölkədə ictimai asayişi üç-dörd saatdan sonra bərpa etmək mümkün olmuşdur.

Bütün bunlara baxmayaraq, müxalifət düşərgəsi seçkilərdə faktiki olaraq qələbə qazandığını iddia etmişdir. Tixanovskaya seçki qərargahında keçirdiyi mətbuat konfransında bildirmişdir ki, seçki kampaniyası imzatoplama mərhələsindən başlayaraq xalqın müxalif qüvvələrə dəstəyini nümayiş etdirmişdir.

Belarusda prezident seçkiləri hansı namizədin qalib gəlməsindən çox Minskin beynəlxalq aləmlə, ilk növbədə Rusiya və Qərb ölkələri ilə münasibətləri qarşıdakı mərhələdə necə quracağı maraq doğurur. Prezident vəzifəsinə iddialı beş namizədin hamısının proqramları bir-birindən az fərqlənirdi. Onların praktiki olaraq hər biri Rusiyaya birtərəfli istiqamətlənməni zəiflətməyə və Qərb tərəfdaşları ilə əlaqələri genişlətməyə tərəfdar çıxırdı. Eyni zamanda bütün namizədlər əsas şüar kimi Belarusun müstəqilliyini müdafiə etmək vədi verirdilər.

İndi seçkiqabağı vədləri reallaşdırmağın vaxtı gəlib çatmışdır. Prezident Lukaşenko dövlət başçısı kimi hər şeydən əvvəl Rusiya ilə münasibətləri yoluna qoymalıdır. Heç kimə sirr deyil ki, xeyli vaxtdır Minsk-Moskva əlaqələrində ciddi problemlər nəzərə çarpır. Doğrudur, Lukaşenko səsvermədən əvvəl bəyan edirdi ki, Belarusda, yaxud Rusiyada hakimiyyətdə kimin olmasından asılı olmayaraq, Moskva həmişə Minskin ən yaxın müttəfiqi olacaq. Bununla yanaşı, o qeyd edirdi ki, Rusiya qardaşlıq münasibətlərini tərəfdaşlıq münasibətləri ilə əvəzləmişdir. İndi iki ölkə arasında tərəfdaşlığın özünü də qurmaq lazımdır.

Məlum olduğu kimi, iki ölkə uzun illərdir ittifaq dövləti təşəbbüsü çərçivəsində sıx əməkdaşlıq edirdi. Rusiya Belarusun əsas kreditoru idi. Minsk Moskvadan böyük məbləğdə kredit almaqda, enerji daşıyıcıları idxalında güzəştlərdən istifadə edirdi. Rusiya keçən ilədək Belarusun yeganə neft təchizatçısı idi. Bu il isə vəziyyət dəyişmişdir. Minsk və Moskva Rusiyadan Belarusa ixrac edilən neftin qiymətini razılaşdıra bilməmişdir. Nəticədə Belarus Şərq qonşusundan neft idxalını azaltmağı qərara almış, karbohidrogen idxalı mənbələrini şaxələndirmək xətti götürmüşdür. İndi Belarus Rusiyadan əlavə, bir sıra digər neft ölkələrindən "qara qızıl" idxal etməyə başlamışdır.

Səsvermə ərəfəsində Belarus-Rusiya münasibətlərində daha bir qalmaqal yarandı. Ötən ayın 29-da Belarusda Rusiyanın "Vaqnerin özəl hərbi şirkəti"nin 33 üzvü həbs olunmuşdur. Prezident Lukaşenko "Vaqner"çi muzdluların səsvermə ərəfəsində Belarusda sabitliyi pozmaq cəhdində olduğunu bəyan etmişdir. Hər iki tərəfin bir-birinə zidd çoxsaylı bəyanatlarına baxmayaraq, rusiyalılar hələ də həbsdədirlər və onların taleyinə aydınlıq gətirilməmişdir.

Belarus rəhbərliyi dost ölkələr coğrafiyasını genişləndirməyi planlaşdırır. Söhbət ilk növbədə Avropa İttifaqı ölkələrindən gedir. Prezident Lukaşenko hesab edir ki, Belarus sakinləri son 25 il ərzində "həm Şərqə, həm də Qərbə pəncərələri olan ümumi bir ev" qurmuşlar. Aydındır ki, Minskin Avropaya yaxınlaşmaq istiqamətdə səylərinin real nəticə verməsi üçün xeyli vaxt lazım gələcək, çünki Brüssel Belarusla əməkdaşlığı inkişaf etdirmək üçün hər şeydən əvvəl tərəfdaşından Avropa demokratiya standartlarına uyğunlaşmağı tələb edir.

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinin qırıcıları təlim-məşq uçuşları keçiriblər

"TurAz Qartalı - 2020" Azərbaycan-Türkiyə birgə taktiki-uçuş təlimlərinin birinci mərhələsində Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinin (HHQ) qırıcı təyyarələrinin ekipajları təlim-məşq uçuşları keçiriblər.





Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimin mərhələsinin ssenarisinə uyğun olaraq hərbi təyyarəçilər pilotaj texnikası, həmçinin qoşa və manqa ilə uçuşları məşq ediblər. Döyüş təyyarələrinin ekipajları qarşıya qoyulmuş tapşırıqları müvəffəqiyyətlə icra ediblər.

# "Azercell"in LTE şəbəkəsinin əhatəsi 85 faiz yüksəlib

İrihəcmli məlumatların sürətlə ötürülməsi və yüklənilməsinə ehtiyac olduğu, cəmiyyətin əksər hissəsinin onlayn iş və təhsil rejiminə keçdiyi bir zamanda keyfiyyətli mobil internet xidmətlərinə tələbatın artması qaçılmazdır. İstifadəçilərinin gündəlik rabitə ehtiyaclarını operativ şəkildə qarşılamağa istiqamətlənən ölkənin lider mobil operatoru "Azercell Telekom" öz şəbəkəsinin paytaxt və regionlar boyu daha da keyfiyyətli olması üçün bütün texniki tədbirləri həyata keçirir. Belə ki, şəbəkənin təkmilləşdirilməsi sahəsində aktiv fəaliyyətinin nəticəsi olaraq ölkə ərazisində "Azercell"in təqdim etdiyi LTE xidmətində əhəmiyyətli irəliləyişlər olmuşdur.

2019-cu ilin əvvəlindən həyata keçirilən LTE şəbəkəsinin təkmilləşdirilməsi layihəsi nəticəsində bu texnologiya üzərindən çalışan ümumi Radio Baza Stansiyalarının (RBS) sayı 902-dən 2524-ə yüksəlmiş, təkcə 2020-ci ilin ilk yarısında isə daha 845 vahiddə stansiya istifadəyə verilmişdir. Xüsusilə regionlarda görülən işlər sayəsində ölkə üzrə LTE şəbəkəsi daha da genişləndirilmiş və coğrafi əhatə dairəsi 9 faizdən 68 faizə, əhali əhatəsi isə 31 faizdən 85 faizə qədər yüksəlmişdir. Hal-hazırda "Azercell" internet trafikin yüksək keyfiyyətinin təmin edilməsi və artırılması istiqamətində lazımi işlər aparır. Bunun üçün LTE spektrinin zolağının genişləndirilməsi və Bakıda LTE şəbəkəsinin keyfiyyətinin yaxşılaşdırılması həyata keçirilir. Həmçinin, abunəçilər üçün son dərəcə əhəmiyyəli olan Bakı metropolitenində də sürətli mobil internetin əlçatan olması üçün tunellərdə təkmilləşdirmə işləri aparılır, LTE şəbəkəsinin genişləndiriıməsi tam sürətlə davam edir.

Layihə çərçivəsində 6 adda metro stansiyalarında artiq işlər yekunlaşmışdır. Əlavə olaraq metro stansiyalarında LTE-Daşıyıcı Birləşdirmə sistemi də aktiv edilmişdir ki, bu da öz növbəsində LTE şəbəkəsindən istifadə edən abunəçilərin daha yüksək sürət əldə etmələrini təmin edəcəkdir.

Xatırlatmaq yerinə düşər ki, "Systemics" Avropa şirkətinin ötən il Azərbaycanda keçirdiyi müstəqil bençmarkinq testi nəticəsində "Azercell"in bölgələrdə LTE texnologiyası üzrə datanın ötürülmə sürətinə, informasiyanı yükləmə müddətinə və video materialların daha yüksək keyfiyyətlə ötürülməsi parametrlərinə görə ölkənin mobil operatorları arasında daha üstün olduğunu təsdiqləyib. Dünyamiqyaslı telekommunikasiya şirkəti olan Ericcson-un apardığı bençmarkinq araşdırmaları isə, LTE şəbəkəsinin sürətinə görə "Azercell"in "Öz sinfində" ("Best in class") ən yaxşı operatorlardan biri olduğunu nümayiş etdirib.


## "Sumqayıt Kimya Sənaye Parkı" MMC aqroparkların və Sumqayıt Kimya Sənaye Parkının Peşə Təhsil Mərkəzinin təqdimat roliklərinin hazırlanması işlərinin satın alınması üçün

***kotirovka sorğusu keçirir***

Kotirovka sorğusu iştirakçılarına təklif edilir ki, qiymət təkliflərini möhürlənmiş və imzalanmış şəkildə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün iştirakçılar lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Prosedurda iştirak etmək istəyənlər Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin Bakı şəhəri, Xocalı prospekti 37, "Demirchi Tower" də yerləşən ofisindən yazılı müraciət etməklə əldə edə bilərlər. Əlaqələndirici şəxs - Abbas Mamedov (telefon: 012-488-80-65)

İddiaçılar kotirovka sorğusunda iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *kotirovka sorğusunda iştirak etmək üçün müraciət;*
- *iddiaçının tam adı, təşkilatın hüquqi forması, nizamnaməsi, şəhadətnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri, dövlət reyestrindən çıxarış və ƏDV ödəyicisinin qeydiyyat bildirişinin təsdiqlənmiş surətləri;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanına təqdim edilmiş maliyyə hesabatının surəti;*
- *maliyyə imkanlarının, habelə ödəmə qabiliyyətinin olması barədə məlumat;*
- *iddiaçının son 1 (bir) ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *işçi heyəti və onların ixtisası barədə sənədlərin surəti;*
- *satınalma predmeti üzrə təcrübəsi barədə təsdiq edilmiş məlumat;*
- *texniki imkanlar barədə məlumat;*
- *satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olmasını təsdiq edən sənəd (əmr, təsisçilərin yığıncağının qərarı və s.).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan təkliflər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Kotirovka sorğusu proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar prosedurda iştirak etmək üçün yuxarıda göstərilən sənədləri **12 avqust 2020-ci il saat 18:00-dək** "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin Bakı şəhəri, Xocalı prospekti 37, "Demirchi Tower" ünvanında yerləşən ofisinə yazılı formada təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **13 avqust 2020-ci il saat 12:00-da** Bakı şəhəri, Xocalı prospekti 37, "Demirchi Tower" də yerləşən ofisində, iclas zalında açılacaqdır.

Zərflərin açılmasında iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***



## Azərbaycan Dövlət Pedaqoji Universiteti 2020-ci il üçün digər maşın və avandanlıqların satın alınması məqsədilə

***açıq tender elan edir***

**LOT 1 - Digər maşın və avandanlıqların satın alınması**

İddiaçılara təklif edilir ki, dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları ilə daxil olsunlar və eTender haqqında ətraflı məlumat əldə etsinlər. eTenderdə iştirak etmək istəyən iddiaçılar müəyyən edilmiş məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra tələb olunan sənədləri və tender təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: LOT 1 - 500 manat**

**Hesab: AZ92AIIB38090019441105141104**
**VÖEN: 1700495231**
**Bank: Kapital Bank ASC Cəfər Cabbarlı filialı**
**Kod: 200048**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T: AIIBAZ2X**

**QEYD: İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərində həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyətinin dayandırılmaması barədə məlumat;*
- *satınalma prosedurunun başlanmasından əvvəlki 5 il ərzində iddiaçıların özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə məlumat.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsi ilə satınalan təşkilata ünvanlaya bilərlər.Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 02 sentyabr 2020-ci il saat 17:00-dək, tender təklifi və tender təklifinin bank təminatını isə 10 sentyabr 2020-ci il saat 17:00-dək vahid satınalma Portalında yerləşdirməlidirlər. İddiaçıların təklifləri 11 sentyabr 2020-ci il saat 15:00-da vahid satınalma Portalında açılacaqdır.

**QEYD:** *eTenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## DİN Tibb İdarəsi 2020-ci ildə xüsusi dərman preparatının satın alınması məqsədilə yaradılmış açıq tenderə dəvət edir

Tender iştirakçıları öz tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etməlidirlər. Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, podratçının aidiyyəti xidmətlər üzrə ixtisas göstəricilərinin uyğunluğu.

Müqavilənin tələb olunan yerinə yetirilmə müddəti: **31.12.2020-ci il tarixə kimidir.**

Tenderlə əlaqədar məlumat almaq üçün elektron qaydada əlaqələndirici şəxsə müraciət etmək olar.

Əlaqələndirici şəxs: **İskəndərov Nadir.**

Ünvan: **Bakı şəhəri, Azadlıq prospekti, 161.**

**Tender 1 (bir) LOT üzrə keçiriləcək.**

**LOT 1** - Xüsusi dərman preparatının satın alınması

Maraqlananlar tenderin əsas şərtlər toplusunu (əsas şərtlər toplusu Azərbaycan dilində hazırlanmışdır) tenderdə iştirak etmək üçün elektron müraciət etdikdən və aşağıda qeyd olunan hesaba LOT üzrə 200 (iki yuz) manat məbləğində vəsaiti ödədikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada ala bilərlər. Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

**Hesab: AZ88CTRE00000000000002078508**
**VÖEN: 1700341621**
**VÖEN: 1401555071**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kodu: 210005**
**M/H: AZ41NABZ01360100000000003944**
**S.W.İ.F.T: CTREAZ22**

Malgöndərənlər (podratçılar) iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təsdiq olunmuş qaydada elektron formada təqdim etməlidirlər.

1. İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;
2. Tender təklifi (tender təklifləri zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);
3. Tender təklifinin birinci əlavəsi kimi tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində tender təklifinin təminatı - bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən azı 30 (otuz) bank günü çox olmalıdır);
4. Malgöndərən (podratçı) haqqında tələb olunan sənədlər. Bu sənədlərə aşağıdakılar daxildir:

4.1. Malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;

4.2. Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki) maliyyə vəziyyəti barədə bank sənədi;

4.3. Malgöndərənin (podratçının) ixtisas göstəricilərinə dair məlumat (bu məlumatlar tenderin əsas şərtlər toplusunda tələb olunan sənədlərdə və formalarda təqdim olunmalıdır).

- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayışlar;
- Vergilər Nazirliyi tərəfindən həmin iddiaçıların işçilərinin sayı, əmlakları, avadanlıqları, lazımi texniki imkanlarının olmasına dair rəsmi arayış;

4.4. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.

Malgöndərənlər (podratçılar) 1 və 4-cü bəndlərdə qeyd olunan sənədləri **28.08.2020-ci il saat 11:00-a** kimi Tender komissiyasına dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etməlidirlər.

Malgöndərənlər (podratçılar) öz tender təkliflərini **08.09.2020-ci il saat 11:00-a** qədər elektron Portal vasitəsilə təqdim etməlidirlər.

Göstərilən tarixdən gec təqdim olunan təkliflər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə qəbul olunmayacaqdır.

Tender təklifi zərfləri **09.09.2020-ci il saat 11:00-da** elektron Portal vasitəsilə açılacaqdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Dövlət Neft Fondu 2 LOT üzrə təkliflər sorğusu elan edir

**LOT 1. İçməli suyun (19 litrlik bidon və müqavilə müddəti ərzində dispenserlərlə təminat daxil olmaqla) satın alınması;**

**LOT 2. Su nasosu üçün təmir materialının satın alınması.**

Təkliflər sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər AZ1029, Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 165 ünvanına (telefon: +99412 498-77-53, faks: +99412 565-87- 55, əlaqələndirici şəxslər: Əli Rzayev - daxili: 1005, hüquqi məsələlər üzrə Fatimə Səlimli - daxili: 8025) müraciət edə bilərlər.

Müqaviləni yerinə yetirmək üçün təkliflər sorğusu üzrə iddiaçılar lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.

Təkliflər sorğusu proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Təkliflər sorğusunda iştirak üçün sənədlər 20 avqust 2020-ci il saat 18:00-dək qəbul olunur.

İddiaçıların təklifləri 21 avqust 2020-ci il saat 11:00-da AZ1029, Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 165 ünvanında açılacaqdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən 10.08.2020-ci il tarixdə keçirilməsi nəzərdə tutulan "Bakı Metropoliteni" QSC üçün **Sementin satın alınması** üzrə açıq tender iddiaçıların sayı 3 (üç)-dən az olduğuna görə baş tutmamış hesab olunmuş və davamından imtina edilmişdir.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti açıq tender elan edir

Tender 1 LOT üzrə keçirilir.

LOT 1: - "Aztelekom" MMC-nin və Gəncə Telekommunikasiya idarəsinin inzibati binalarında istismarda olan liftlərə 18 ay müddətinə texniki xidmət işlərinin və istifadə olunması ehtimal olunan ehtiyat hissələrinin satın alınması.

**İştirak haqqı: 50 manat**

Tenderdə iştirak etmək istəyənlər göstərilən məbləğdə iştirak haqqını **"ASAN ödəniş" sistemi** vasitəsilə ödədikdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu **etender.gov.az** vahid satınalma Portalından əldə edə bilərlər.

**Müəssisənin adı:**
**"Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti**
**Hesab nömrəsi: AZ62AZPO 91015461200420100166**
**Müəssisənin VÖEN-i: 9900038501**
**Ünvan: AZ1122, Bakı şəh., Tbilisi prospekti -187**
**Bankın adı: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖEN-i: 9900037711**
**Müxbir hesab: AZ76NABZ 01350100000000094944**
**S.W.I.F.T BIK: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri vahid satınalma Portalında yerləşdirməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanlarından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında maliyyə hesabatı;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender təklifini və müqaviləni imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənədin (vəzifəyə təyin edilməsi barədə əmr və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə) iddiaçı tərəfindən möhürlə təsdiq edilmiş surəti;*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
- *iddiaçının müştəri bazası haqqında məlumatlar;*
- *təklif olunan malların mənşə və keyfiyyət sertifikatları;*
- *tenderin əsas şərtlər toplusunda nəzərdə tutulan və tenderin əsas şərtlər toplusunun tələblərindən irəli gələn digər sənədlər.*

İddiaçı təqdim edəcəyi malların keyfiyyətini təsdiqləyən hər hansı digər məlumatları da təqdim edə bilər.

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Tender təkliflərinin qiymətləndirilməsi zamanı onların bu sahədəki çoxillik təcrübəsi, yerli şirkətlərə göstərdiyi təchizat işinin keyfiyyəti, müqavilə imzaladıqları şirkətlər tərəfindən təqdim olunan tövsiyə məktublarının olması nəzərə alınacaqdır.

İddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) **31 avqust 2020-ci il saat 11:00-dək,** tender təklifini və tender təklifinin bank təminatını isə **08 sentyabr 2020-ci il saat 17:00-dək** vahid satınalma Portalında yerləşdirməlidirlər.

İddiaçıların təklifləri **09 sentyabr 2020-ci il saat 11:00-da** vahid satınalma Portalında açılacaqdır.

***Tender komissiyası***

## Azərbaycanda koronavirus infeksiyasından daha 278 nəfər sağalıb, 79 yoluxma faktı qeydə alınıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 278 nəfər sağalıb, 79 yoluxma faktı qeydə alınıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 2 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 33 min 647 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 30 min 642 nəfər müalicə olunaraq sağalıb, 492 nəfər vəfat edib. Aktiv xəstə sayı 2513 nəfərdir.

Ötən müddət ərzində 790 min 141 test aparılıb. Dünənki test sayı isə 5015-dir.




## DİN Tibb İdarəsi 2020-ci ildə şəkərli diabet üzrə dərmanların satın alınması məqsədilə yaradılmış açıq tenderə dəvət edir

Tender iştirakçıları öz tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etməlidirlər. Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, podratçının aidiyyəti xidmətlər üzrə ixtisas göstəricilərinin uyğunluğu.

Müqavilənin tələb olunan yerinə yetirilmə müddəti: **31.12.2020-ci il tarixə kimidir.**

Tenderlə əlaqədar məlumat almaq üçün elektron qaydada əlaqələndirici şəxsə müraciət etmək olar.

Əlaqələndirici şəxs: **İskəndərov Nadir.**

Ünvan: **Bakı şəhəri, Azadlıq prospekti, 161.**

**Tender 1 (bir) LOT üzrə keçiriləcək.**

**LOT 1 -** Şəkərli diabet üzrə dərmanların satın alınması;

Maraqlananlar tenderin əsas şərtlər toplusunu (əsas şərtlər toplusu Azərbaycan dilində hazırlanmışdır) tenderdə iştirak etmək üçün elektron müraciət etdikdən və aşağıda qeyd olunan hesaba LOT üzrə 200 (iki yuz) manat məbləğində vəsaiti ödədikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada ala bilərlər. Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

**Hesab: AZ88CTRE00000000000002078508**
**VÖEN: 1700341621**
**VÖEN: 1401555071**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kodu: 210005**
**M/H: AZ41NABZ01360100000000003944**
**S.W.İ.F.T: CTREAZ22**

Malgöndərənlər (podratçılar) iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təsdiq olunmuş qaydada elektron formada təqdim etməlidirlər.

1. İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;
2. Tender təklifi (tender təklifləri zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);
3. Tender təklifinin birinci əlavəsi kimi tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində tender təklifinin təminatı - bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən azı 30 (otuz) bank günü çox olmalıdır);
4. Malgöndərən (podratçı) haqqında tələb olunan sənədlər. Bu sənədlərə aşağıdakılar daxildir:

4.1. Malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;

4.2. Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki) maliyyə vəziyyəti barədə bank sənədi;

4.3. Malgöndərənin (podratçının) ixtisas göstəricilərinə dair məlumat (bu məlumatlar tenderin əsas şərtlər toplusunda tələb olunan sənədlərdə və formalarda təqdim olunmalıdır).

- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayışlar;
- Vergilər Nazirliyi tərəfindən həmin iddiaçıların işçilərinin sayı, əmlakları, avadanlıqları, lazımi texniki imkanlarının olmasına dair rəsmi arayış;

4.4. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.

Malgöndərənlər (podratçılar) 1 və 4-cü bəndlərdə qeyd olunan sənədləri **28.08.2020-ci il saat 11:00-a** kimi Tender komissiyasına dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etməlidirlər.

Malgöndərənlər (podratçılar) öz tender təkliflərini **07.09.2020-ci il saat 11:00-a** qədər elektron Portal vasitəsilə təqdim etməlidirlər.

Göstərilən tarixdən gec təqdim olunan təkliflər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə qəbul olunmayacaqdır.

Tender təklifləri zərfləri **08.09.2020-ci il saat 11:00-da** elektron Portal vasitəsilə açılacaqdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi "Azərpoçt" MMC kompüterin və serverin ehtiyat hissələri ilə təmin edilməsi üzrə açıq tender elan edir

**Tender 1 LOT üzrə keçirilir.**

LOT 1 Kompüterin və serverin ehtiyat hissələrinin alınması

Tender iştirakçılarına təklif edilir ki, **http://www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə əldə edə bilərlər.

Hər bir iddiaçı tenderdə iştirak haqqı kimi:

**LOT 1 200 manat**

məbləğində pul vəsaitini "ASAN ödəniş" sistemi ilə bank hesabına köçürməlidir:

**"Azərpoçt" MMC**
**VÖEN: 9900037711**
**Bankın adı: "Azərpoçt" MMC**
**Kodu: 690001**
**VÖEN: 9900037711**
**Müxbir hesab: AZ76NABZ01350100000000094944**
**Hesab №: AZ82AZPO99995381000420000125**
**S.W.I.F.T.BIK: AZPOAZ22**

İddiaçılar tərəfindən ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının analoji iş təcrübəsini təsdiq edən sənədlər;*
- *tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi. Təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır;*
- *iddiaçının tender təklifinin bank təminatı (zərflər açıldığı gündən ən azı 60 bank günü müəyyən edilir və təklifin qiymətinin ən azı 1 (bir) faizini təşkil etməlidir).*

İddiaçılar konsorsium yaratmaqla tenderdə iştirak etmək istəyirsə, konsorsium barədə müqavilə və ya razılaşma, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) **31 avqust 2020-ci il saat 15:00-dək,** tender təklifini və tender təklifinin bank təminatını isə **08 sentyabr 2020-ci il saat 18:00-dək** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər dövlət satınalmalarının vahid internet Portalında nəzərə alınmayacaqdır.

İddiaçıların təklifləri **09 sentyabr 2020-ci il saat 11:00-da** açılacaqdır. Təkliflərin açılışı dövlət satınalmalarının vahid internet Portalında virtual iclas formatında aparılacaqdır.

Elektron satınalmanın hər bir iştirakçısına onun təklifinin açılmasını və qiymətləndirilməsini müşahidə etmək üçün bərabər şərait yaradılır.

Tenderlə əlaqədar istənilən məlumatı əldə etmək üçün aşağıdakı şəxsə müraciət etmək olar:

Oktay İsmayılov - Tender komissiyasının üzvü, (tel.: +99412-493-56-00, faks: +99412-493-00-37).

***Tender komissiyası***

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az

## ALLAH RƏHMƏT ELƏSİN!

"Azərişıq" ASC-nin kollektivi Kazım Qurbanova atası **XANLAR KAZIM OĞLU QURBANOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin rəhbərliyi və kollektivi "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC sədrinin iqtisadi məsələlər üzrə müavini Cəlal Fərəcliyə qayınatası **MİRNAĞI TƏHMƏZOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Euroline" QSC-nin rəhbərliyi və kollektivi şirkətin layihə rəhbəri Pərvin Rzayevə qardaşı **MƏMMƏD RZAYEVİN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi və kollektivi Mərkəzi-Muğan kollektorunun istismarı idarəsinin rəisi Qasım Qasımova atası **ƏLİBALA QASIMOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Azərbaycan" nəşriyyatının kollektivi Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Əhməd İsmayılova atası **MƏHƏMMƏD İSMAYILOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 7352
Sifariş 1910
Qiyməti 40 qəpik